www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10-13 avqust 2019-cu il Şənbə № 167 (7337) Qiymәti 60 qәpik

**Xəbər**

## Avropadakı müxalifət bir-birini "qırır" - son gəlişmələr

yazısı səh.7-də

**Gündəm**

### İrəvan nöqtəni qoydu: Azərbaycanın Qarabağı azad etməsinə nə mane olur?



Ermənistan işğal olunmuş ərazilərlə bağlı yeni təxribatçı planı işə salır; **ekspert:** "Rusiya çalışır ki, Qarabağda "nə hərb, nə də sülh" olsun..."

yazısı səh.4-də

### İŞİD-ə 500 min dollar yardım göndərənlərin məhkəməsindən yeni xəbərlər

yazısı səh.9-da

### Övladları jurnalistləri sevindirdi-qəbul olduqları ali məktəblərin siyahısı

yazısı səh.10-da

### Rəsulzadənin adına verilən gəmi ilə bağlı ziddiyyət

yazısı səh.3-də

### Terrorçu Breyvik Ermənistan bayrağı fonunda

yazısı səh.4-də

### Qarabağ uçun Ankara-Moskva tandemi

yazısı səh.11-də

### Yağış bitkiçiliyə zərər, heyvandarlığa xeyir verir

yazısı səh.12-də

### Qurbanınız qoyun olsun: AQTA xəbərdarlıq etdi

yazısı səh.14-də

### "Neftçi" işini çətinə saldı: iki top buraxmağın iki səbəbi...

yazısı səh.15-də

### Bu məmurların vəzifə maaşları artırıldı

yazısı səh.2-də

# TÜRKİYƏDƏN QARABAĞ VƏ KRIM MƏSƏLƏSİNDƏ PRİNSİPİAL MÖVQE - SEPARATÇILIĞA NÖVBƏTİ ZƏRBƏ

Ankaradan postsovet məkanındakı separatizmlə bağlı önəmli mesaj; Türkiyə erməniləri Xankəndindəki oyunları boykot etdi - Paşinyana şok; Ərdoğan Krımda məscidin açılışına gedəcəkmi?..



yazısı səh.8-də

## MİQ-29 qırıcısının düşdüyü yer bilindi-rəsmi

Təyyarənin əsas hissəsinin dənizin dibindən çıxarılması üzrə hazırlıq işləri görülür; Rusiya niyə prosesə gec qoşuldu - fərqli reaksiyalar...

yazısı səh.3-də



*Sərdar Cəlaloğlu:*

**"Elçibəyin, Atambayevin, Qamsaxurdiyanın faciəsinin səbəbi..."**

yazısı səh.6-da



*Hikmət Hacızadə:*

**"Nəhayət ki, ABŞ-da bir "dəli" prezident tapıldı və bunu etdi"**

yazısı səh.13-də



**Anar ittihamlara sərt cavab verdi**

yazısı səh.5-də

# Qarabağ əlillərinə daha 50 avtomobil verildi



## Ərdoğan Azərbaycana gələcək

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 3-də Azərbaycana səfər edəcək. Bu barədə «Trend»ə Türkiyə hökumətindəki mənbə bildirib. Mənbənin sözlərinə görə, türkiyəli lider Türk Şurasının Bakıda keçiriləcək VII iclasında iştirak etmək üçün, eləcə də qurumun 10 illiyinə həsr olunmuş tədbirə qatılmaq üçün Azərbaycana səfər edəcək.**

Qeyd edək ki, Türk Şurası 2009-cu il oktyabrın 3-də Naxçıvanda yaradılıb. Şuranın məqsədi üzv dövlətlər arasında hərtərəfli əməkdaşlığı inkişaf etdirməkdir.

Türk Şurasına Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan daxildir.

## Bu məmurların vəzifə maaşları artırıldı

**Baş nazir Novruz Məmmədov "Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli qərarına dəyişiklik edib. Modern.az xəbər verir ki, dəyişiklik "Minimum aylıq əmək haqqının artırılması haqqında" prezidentin 2019-cu il 18 iyun tarixli sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə olunub.**

Qərara görə, ali kateqoriya dövlət orqanlarında vəzifə maaşları 310 (əvvəl 220) manat, 1-ci kateqoriya dövlət orqanlarında vəzifə maaşları 295 (əvvəl 210) manat, 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında vəzifə maaşları 280 (əvvəl 200) manat, 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında vəzifə maaşları 260 (əvvəl 180) olub.

Qərar sentyabrın 1-dən qüvvəyə minir.

## Bakının əsas yollarında sürət həddi endirildi

**Paytaxtda müşahidə edilən yağıntılı hava şəraiti ilə əlaqədar Heydər Əliyev prospekti-Hava Limanı-Bilgəh və Zığ dairəsi-Hava Limanı avtomagistrallarında bütün zolaqlar üzrə sürət həddi 20 km/saat endirilib. Məqsəd hərəkətin təhlükəsizliyini təmin etməkdir.**

Bu barədə Bakı Nəqliyyat Agentliyindən məlumat verilib.

Qeyd olunur ki, bəzi yollarda yağış suyunun yığılması səbəbindən nəqliyyat vasitələrinin hərəkətində çətinliklər yaranıb. Bu səbəbdən də bir sıra müntəzəm marşrut xətləri üzrə avtobusların intervalında gecikmələr müşahidə edilib.

"Hərəkət iştirakçılarına bu cür hava şəraitində ehtiyatlı olmağı tövsiyə edirik. Sürücülərdən yollarda sürət həddinə əməl etmələrini, meteoroloji amilləri nəzərə almalarını və digər hərəkət iştirakçılarına qarşı anlayışla davranmalarını xahiş edirik.

Eyni zamanda piyadalara yolun hərəkət hissəsinə çıxmamaq və yolun qarşı tərəfinə keçərkən müəyyən olunan piyada keçidlərindən istifadə etmələri tövsiyə edilir", - məlumatda qeyd olunur.

## Zelenski Türkiyə ilə ticarət dövriyyəsinin həcmini 10 milyarda çatdırmaq istəyir

**Türkiyədə səfərdə olan Ukrayna prezidenti Vladimir Zelenski İstanbulda keçirilən Ukrayna-Türkiyə Biznes forumunda qeyd edib ki, rəsmi Kiyev Ankara ilə ikitərəfli ticarət dövriyyəsinin həcmini 10 milyard dollara çatdırmaq istəyir.**

"Anadolu" agentliyi xəbər verir ki, Ukraynanın dövlət başçısı deyib: "Biz Türkiyə ilə biznesi inkişaf etdirmək istəyirik. Təkcə qardaş Türkiyənin iri şirkətləri ilə deyil, həmçinin bütün biznes assosiasiyaları ilə birgə fəaliyyət göstərmək niyyətindəyik".

Ölkəsinin biznes planlarından bəhs edən prezident qeyd edib ki, Ukrayna infrastruktur layihələrinə 20 milyard dollar sərmayə qoyub. Bu layihələrə 15 aeroport və beş liman daxildir. O, Türkiyənin iş adamlarını da yeni layihələrdə fəal iştirak etməyə çağırıb.

Türkiyənin ticarət naziri Ruhsar Pekcan bildirib ki, Türkiyənin inşaat firmaları indiyədək Ukraynada 5,9 milyard dollar həcmində layihələrin həyata keçirilməsində iştirak ediblər. O, bu fəaliyyətin bundan sonra da davam edəcəyini vurğulayıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Xəzər" markalı daha 50 avtomobili Qarabağ müharibəsi əlillərinə təqdim edib. Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli ölkəmizin dinamik iqtisadi inkişafı şəraitində güclü sosial siyasətin həyata keçirildiyini, o cümlədən həssas qruplara dövlətin qayğısının artmaqda davam etdiyini vurğulayıb.**

Bildirib ki, cari ilin ötən dövründə Prezident İlham Əliyevin uğurlu sosial islahatlar paketi əməkhaqlarının, pensiya, müavinət və təqaüdlərin ciddi şəkildə artmasına səbəb olub. Bu islahatlar 4,2 milyon insanın rifahına ciddi dəstək olub.

V.Nəsirli qeyd edib ki, 2019-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə əlillərinə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600-ə yaxın avtomobilin verilməsi nəzərdə tutulub, hazırda təqdim olunanlar da daxil olmaqla onlardan artıq 280 avtomobil verilib.

Nazir müavini deyib ki, bununla da indiyədək müharibə əlillərinə 6424 minik avtomobili verilib. Həmçinin Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə 2019-cu ildə azı 800 mənzil verilməsi planlaşdırılıb, bu ilin ötən dövründə onlardan artıq 110 mənzil təqdim edilib. Ümumilikdə bu vaxta qədər 6764 şəhid ailəsi və müharibə əlili nazirlik tərəfindən mənzillə təmin olunub.



## Tramp Milli Kəşfiyyat İdarəsinə onu rəhbər gətirir

**ABŞ Milli Kəşfiyyat İdarəsi direktorunun səlahiyyətlərini Milli Antiterror Mərkəzinin rəhbəri Cozef Maquayr icra edəcək.**

TASS xəbər verir ki, bu barədə ABŞ Prezidenti Donald Tramp twitter səhifəsində yazıb. O, avqustun 15-dən Cozef Maquayrın Milli Kəşfiyyat İdarəsi direktorunun səlahiyyətlərini icra edəcəyini bildirib.

Xatırladaq ki, Milli Kəşfiyyat İdarəsinin hazırkı direktoru Daniel Kouts avqustun 15-də bu vəzifəni tərk edəcək.

## Bakıda iki kişi meyiti tapıldı

**Paytaxtda iki kişi meyiti aşkarlanıb. "Report"un xəbərinə görə, meyitlərdən biri (Bakı sakini, 57 yaşlı Mirağa Qasımovun meyiti) Nərimanov rayonu, Atatürk parkında tapılıb.**

Yasamal rayonu A.M.Şərifzadə küçəsində isə 42 yaşlı Ramil Sadıqovun meyiti tapılıb.

Hər iki şəxsin ölümünün səbəbləri araşdırılır.

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## "Azərişıq" qəzaların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görür

**"Bütün ölkə boyu elektrik enerjisi təchizatı tam təmin edilib". Bunu virtualaz.org-a "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirib.**

Onun sözlərinə görə, təmsil etdiyi qurum kəskin hava şəraiti ilə bağlı baş verə biləcək qəzaların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görür: "Hazırda Bakıda və regionlarda istehlakçıların elektrik enerjisi təchizatında heç bir problem yoxdur. Havanın küləkli və yağışlı olması səbəbindən yalnız Abşeron yarımadasının bəzi ərazilərində baş verə biləcək qəzaların qarşısını almaq üçün qabaqlayıcı tədbir olaraq bir neçə dəqiqəlik elektrik enerjisi təchizatı dayandırılır. Hazırda bu tədbirlər Ceyranbatan və Bağlar massivində həyata keçirilir. Belə təchizatın dayandırılması isə 30 dəqiqədən çox çəkmir".

## 63,1 min ailə sosial yardımla təmin edilib

**2019-cu ilin 6 ayında aztəminatlı ailələrin rifahının yaxşılaşdırılması tədbirləri çərçivəsində həmin ailələrin dövlətin sosial yardımı ilə təmin edilməsi davam etdirilib. Yanvar-iyun aylarında 63,1 min ailə (260,7 min nəfər ailə üzvü) ünvanlı dövlət sosial yardımı ilə təmin edilib.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov bildirib.

Onun sözlərinə görə, bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 199,2 manat təşkil edib: "Sosial yardım təyinatı elektron sistem tərəfindən həyata keçirilir. Ölkəmizin öz mütəxəssislərinin hazırladığı bu sistem sosial yardım proqramının icrasında ünvanlılığa təminat verməklə, yardım alınması üçün müraciət və təyinat prosesinin məmur-vətəndaş kontaktları olmadan, tam şəffaf həyata keçirilməsinə imkan yaradıb. Vətəndaş təmsil etdiyi ailənin sosial yardım almaq hüququna baxılması üçün yalnız e-qaydada müraciət edərək, ailəsinin tərkibi, gəlirləri, əmlakı və s. barədə məlumatları e-sistemə daxil edir və bu məlumatlar avtomatlaşdırılmış rejimdə yoxlanaraq qərar qəbul olunur.

Təsadüfi deyil ki, cari ildə Beynəlxalq Sosial Təminat Assosiasiyası tərəfindən 20 ölkədən 76 sosial layihənin iştirak etdiyi müsabiqənin nəticəsinə əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ünvanlı dövlət sosial yardımı üzrə elektron sistemi xüsusi mükafata layiq görülüb".

## Bayram tətili başladı

**Bu gündən Azərbaycanda Qurban bayramı ilə əlaqədar dördgünlük tətil başlayır.**

"Report"un xəbərinə görə, avqustun 10-u şənbə, 11-i bazar gününə təsadüf edir. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Qurban bayramı ilə əlaqədar avqustun 12-si və 13-ü qeyri-iş günüdür.

Beləliklə, 10-13 avqust tətil günləridir. Növbəti iş günü avqustun 14-dür.

## "İki ay qabaq "Nəsimi" filmi Nyu-Yorkda göstərilib"

**"Nəsimi" və "Yeddi oğul istərəm" filmləri dünyanın 138 ölkəsində nümayiş olunub. Bunu əməkdar incəsənət xadimi, rejissor Şeyx Əbdül Mahmudbəyli "Yeni Müsavat"a açıqlamasında bildirdi.**

Onun sözlərinə görə, bu, statistik məlumatdır və 50 il müddətində sözügedən kinolar dünyanın 130 ölkəsini gəzib:

"İki ay əvvəl mənə Amerikadan zəng edilmişdi, dedilər ki, Nyu-Yorkda kinoteatr var. Orada SSRİ xalqlarının milli filmləri göstərilir.

Dedi ki, bir həftədir "Nəsimi" filmi nümayiş olunur. Sovet hökuməti şəhərlərin qardaşlaşması siyasəti aparırdı. Sarayevo - Bakı dostluğu varıydı.

O vaxt kinofestival olmuşdu, "Yeddi oğul istərəm" göstərilib. Moskva özü hansı filmləri dünyaya çıxarmağı müəyyənləşdirirdi.

Bizim üçün yapon, amerikan filmi hansı əhəmiyyət kəsb edirsə, onlarda da elədir. Sovet ideologiyası varıydı, özünün "millətlər evi" olduğunu çatdırmaq üçün öz xalqlarının filmlərini göstərirdi.

"Yeddi oğul istərəm"də ilk dəfə Novruz səhnələri var. Milli bayram digər xalqlar üçün həmişə maraqlı olub. Necə ki, hind rəqsi bizə maraqlıdır".

**Şeyx Əbdül qeyd etdi ki, indi də turistlər milli geyimlərimizi, musiqi alətlərimizi alırlar:** "Azərbaycandan öyrəniləsi çox şey var.

O vaxt rus aktyorlar Muxtar Manıyevə, Rasim Balayevə, Həsən Məmmədova ağızlarını açıb baxırdılar. Sadəcə, biz dünyaya onları çatdıra bilmirik".

Bu gün niyə belə filmlərin çəkilməməsinə gəlincə, Ə.Mahmudbəyov bunları bildirdi: "Sən yaramın qaysağını qoparırsan. Böyük kişilər var idi. O böyük kişilər ağ atlara minib getdilər. İndi qayıdış olmalıdır. Bir zamanlar klassik ədəbiyyatda durğunluq varıydı. Amma Axundov, Qasım bəy Zakir, Üzeyir bəy, Cəfər Cabbarlı çıxdı, intibah dövrümüz əmələ gəldi. Şərait yaranan kimi yenə yetişəcək. Biz böyük xalqıq. Sadəcə, şəxsi maraqları, nəfsimizi, tayfa maraqlarımızı kənara qoymalıyıq. Milli mənəvi dəyərlərimizə, soy-kökümüzə qayıtmalıyıq".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019

# MİQ-29 qırıcısının düşdüyü yer bilindi-rəsmi

## Təyyarənin əsas hissəsinin dənizin dibindən çıxarılması üzrə hazırlıq işləri görülür; Rusiya niyə prosesə gec qoşuldu- fərqli reaksiyalar...



**Gecə təlim-məşq uçuşu keçirən zaman qəzaya uğramış Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin Xəzər dənizinə düşdüyü ərazi avqustun 8-i axşam saatlarında müəyyən edilib.**

Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Məlumatda deyilir ki, aidiyyəti dövlət qurumları və xidmətləri nümayəndələrinin, eləcə də axtarışlara cəlb edilən türkiyəli mütəxəssislərin iştirakı ilə görülən təxirəsalınmaz tədbirlər nəticəsində təyyarənin bəzi fraqmentləri hissə-hissə sudan çıxarılıb. Hazırda təyyarənin əsas hissəsinin dənizin dibindən çıxarılması üzrə hazırlıq işləri görülür.

Xatırladaq ki, iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. Qəzaya uğrayan pilot, polkovnik-leytenant Rəşad Atakişiyevin də axtarışları davam edir.

**Gecə təlim-məşq uçuşu keçirən zaman qəzaya uğramış Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin Xəzər dənizinə düşdüyü ərazinin yerinin müəyyənləşməsi məlumatını MiQ-29 təyyarəsinin pilotu Rəşad Atakişiyevin qayınatası Qabil Hüseynli də təsdiqləyib. O, BAKU.WS-ə açıqlamasında deyib ki, özü də axtarış yerinə dəvət olunub:** “Xəbər almışıq, hadisə yerinə gedirik. Ətraflı məlumata malik deyiləm. Yəqin ki, nəsə var ki, çağırıblar. Məni Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının rəsmisi Siyəzən rayonunun Zarat kəndinin ətrafında qurulmuş axtarış mərkəzinə dəvət edib”.



Qeyd edək ki, Rusiya da axtarış proseslərində iştirak edəcəyini açıqlayıb. Yayılan məlumatda deyilir ki, Xəzər donanmasının mütəxəssisləri Azərbaycanın qəzaya düşən MiQ-29 təyyarəsinin axtarışlarında iştirak edəcəklər. Bunu jurnalistlərə açıqlamasında Rusiya Cənub Hərbi Dairəsinin mətbuat katibi Vadim Astafyev deyib. O, Xəzər donanmasının qəza-xilasetmə dəstələrinin mütəxəssislərinin artıq MiQ-29-un qalıqlarının axtarışlarına göndərildiyini bildirib. (Axar.az) Astafyev Azərbaycana dəstək üçün “Anatoli Qujvin” kiçik hidroqrafik gəminin, SB-45 yedək gəmisinin, çoxfunksiyalı mobil komplekslərlə komplekt edilmiş MMK-1-100 gəmisinin və 50 nəfərlik şəxsi heyətin Azərbaycana yardım üçün göndərildiyini bəyan edib. O, həmçinin axtarışlara Falkon, Super QNOM Pro sualtı aparatlarının da cəlb edilməsinin planlaşdırıldığını qeyd edib. Donanmanın 600 kvadrat kilometrlik və 40 metrlik dərinlikdə axtarışlar aparacağı, eləcə də axtarışlara 2 sutka sonra qoşulacağı vurğulanıb.

Ancaq bəzi müşahidəçilər sual edirlər: niyə qonşu Rusiya Azərbaycan qırıcısının və pilotun axtarış prosesinə xeyli gec qoşulub, yaxud da bununla bağlı mövqeyini yalnız indi açıqlayıb? Yeri gəlmişkən, bundan əvvəl İran, Rusiya və Qazaxıstanın hərbi gəmiləri Bakı limanlarınadək gəlmişdilər və onlar hərbi oyunlarda iştirakdan sonra geri döndülər. Ancaq Rusiya bütün bunlardan sonra kömək mesajını verdi. Qeyd edək ki, Rusiya kömək mesajını versə də, hələlik konkret addım atılmayıb, bu barədə ancaq mətbuatda bildirilib.

Məsələ ilə bağlı rəsmi qurumlardan hər hansı məlumat öyrənə bilmədik. Ekspert isə fərqli düşünür.

**“Bunun sadə cavabı budur ki, Azərbaycan tərəf gec müraciət edib. Düşünüb ki, öz gücümüzlə həm təyyarəni, həm də pilotu tapa bilərik. Daha sonra Türkiyə tərəfinə müraciət etdi. Ancaq görünür, Türkiyə tərəfinin də axtarışları nəticə vermədiyindən, üstündən günlər və həftələr keçdiyindən, eyni zamanda cəmiyyət də narahat olduğundan Rusiyaya müraciət etmək məcburiyyətində qaldılar”. Politoloq Elxan Şahinoğlu bu fikirləri “Yeni Müsavat”a açıqlamasında bildirdi.**

“Nəhayət ki, MiQ-29 təyyarəmizin yeri də məlum oldu və yaxın saatlarda təyyarənin qalıqlarının suyun üzərinə qaldırılması əməliyyatı həyata keçiriləcək”. “Eurasia Diary” xəbər verir ki, bunu hərbi ekspert, polkovnik-leytenant Üzeyir Cəfərov özünün feysbuk hesabında yazıb. “Mən buradan Müdafiə Nazirliyinin rəhbərlərinə səslənirəm: artıq axtarış-xilasetmə işlərinə Rusiya mütəxəssislərinin cəlb edilməsinə ehtiyac yoxdur. Əgər onlar bu prosesdə iştirak edəcəklərsə, biz heç vaxt təyyarənin qəzaya uğraması deyil, uğradılması ilə bağlı həqiqəti öyrənə bilməyəcəyik.

Allah xidməti vəzifələrinin icrası zamanı faciəli şəkildə həlak olan pilotumuz polkovnik-leytenant Rəşad Atakişiyevin doğma və əzizlərinə də səbr versin.

Tanrı Azərbaycanımızı və Silahlı Qüvvələrimizi qorusun!", - Ü.Cəfərov bildirib.

❑ **Cavid TURAN, “Yeni Müsavat”**

# Rəsulzadənin adına verilən gəmi ilə bağlı ziddiyyət

## Gəminin üzərindəki “Mammad Amin Resulzadeh” yazısı ictimaiyyətdə müzakirəyə səbəb olub...

**“Palmali” Şirkətlər Qrupunun rəhbəri Mübariz Mənsimov Türkiyədə Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin adını daşıyan gəminin açılışını etdi. Məsələ xüsusilə də müxalifət cameyəsində səs-küylə qarşılandı. Müsavat Partiyasının rəhbər heyəti bu halı alqışlayıb, belə bir gəminin hazırlanmasına görə səbəbkara təşəkkürünü bildirdi.**

Lakin gəminin üzərində cümhuriyyət qurucusunun adının fərqli formada yazılması yeni bir müzakirənin açılmasına səbəb oldu. Belə ki, gəminin üzərində “Mammad Amin Resulzadeh” yazılıb və jurnalist Eynulla Fətullayev sosial şəbəkədə status yazaraq buna iradını bildirib: “Bir müddət öncə Novxanı qəsəbəsində Rəsulzadənin doğulduğu evdə quraşdırılan yeni memorial lövhədə Cümhuriyyət qurucusunun vəzifəsi yazılmamışdı. Müxalifət, xüsusilə həmkarım Sevinc Osmanqızı sosial şəbəkələrdə qəzəb püskürürdü: ”Qurucu-babamıza hörmətsizlik!, “Biləräkdən edilib!”... Müxalifət hakimiyyəti ittiham edib, xətanı düzəltməyi tələb edirdi.

Dünən isə Sevinc Osmanqızı oliqarx Mübariz Mənsimovun Rəsulzadənin adına ithaf etdiyi guya yeni gəminin açılış mərasiminə həsr olunan video paylaşıb. Birincisi, Mənsimov köhnə gəmiyə yeni boya çəkib, əski yazının üstünə Rəsulzadə adını yazdırıb. İkincisi, qurucu babamızın adını belə yazıblar: “Mammad Amin Resulzadeh”. Bu hansı dildədir? Mammad nədir, a kişi?! Niyə susub etiraz etmirsiz? Deyək ki, osmanlı türkcəsində olsa belə - Mehmet olmalı idi. Bəs niyə susursuz? Niyə qab-qaşığı və stulları qırmırsız?"

Jurnalistin bu fikrinə xeyli sayda istifadəçi dəstək verib. Eyni zamanda bu fikirlərə qarşı çıxanlar da az olmayıb. Bəs əslində bu kimi məqamlarda ad necə yazılmalıdır?




**“Yeni Müsavat”a danışan AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoylu bildirdi ki, adın bu cür yazılması yanlışdır:** “Mənim fikrimcə, ad Məhəmməd Əmin Rəsulzadə kimi yazılmalıdır. Ancaq bəzən Məmməd Əmin Rəsulzadə kimi də yazırlar. Adın Mammad Amin Resulzadeh kimi yazılması tamamilə səhvdir. Ərəb əlifbasından çıxış edərək, adın Məhəmməd Əmin Rəsulzadə olduğu hər kəsə məlumdur. Bir dilçi kimi mən bu cür düşünürəm”.

**Tarixçi Dilavər Əzimli də dedi ki, tarixi mənbələrdə bu cür yazılışa rast gəlməyib:** “İlk olaraq qeyd edim ki, məsələnin həyata keçməsində sevinənlərdən biri də mənəm. Çünki vətənimin hər hansı bir oğlu vətənin, dövlətin qeyrətini çəkirsə, bizim əzizimizdir. Ancaq gəminin üzərində yazılan yazını mən də anlamadım. Onu yazanların kim olduğunu da bilmirəm. Heç bir tarixi mənbədə, o dövrün ədəbiyyatlarında belə bir ada rast gəlinmir. Əvvəla, bu şəxsin adı öz yazılarında da Məhəmməd Əmin Rəsulzadə kimi yazılır. Onun ata-babaları böyük axund, din nümayəndələri olublar. Ona görə də övladlarına peyğəmbərimizin adını qoyublar. Məhəmməd sözünün təhrif olunması, peyğəmbər adının təhrif edilməsinə ciddi ləkədir. Bu, kifayət qədər ciddi məsələdir. Bəzən peyğəmbərimizə, dinimizə ləkə vurmaq istəyənlər adımızı ”Mamed", “Məmməd” kimi yazırlar. Bu, peyğəmbərimizə qarşı da təhqirdir. Heç bir zaman isə İsa peyğəmbərin və ya Musa peyğəmbərin adlarını fərqli formada deməyiblər. Bizim üçün də onlar əziz peyğəmbərlərdir. Gəminin üzərində yazılan isə həm ad, həm də soyadda təhrifdir. Bu, heç türkcə də deyil. Əgər Osmanlı türkcəsində yazılsaydı, o zaman adı gərək Mehmet Emin yazardılar. Belə də yazmayıblar. Bu nədir? Bu cür adın yazılması düzgün deyil. İctimaiyyət tərəfindən təpki olmalıdır ki, ad dəyişdirilsin. Hər halda, bu gəmi okeana çıxacaqsa, üzərindəki ad da düzgün yazılmalıdır. Yaxşı olardı ki, yazılanlardan nəticə çıxarıb, adı korrektə etsinlər. Rəsulzadə adi insan olmayıb. O, Azərbaycan Xalq Cümhuriyyətini yaradanların rəhbəri olub. Cümhuriyyətin banisi ilə bağlı addım atan zaman diqqətli olmaq lazımdır".

❑ **Əli RAİS, “Yeni Müsavat”**

# İrəvan nöqtəni qoydu: Azərbaycanın Qarabağı azad etməsinə nə mane olur?

## Ermənistan işğal olunmuş ərazilərlə bağlı yeni təxribatçı planı işə salır; **ekspert:** "Rusiya çalışır ki, Qarabağda "nə hərb, nə də sülh" olsun..."

**İşğalçı Ermənistanın Azərbaycan ərazilərindəki həyasızlıqlarının miqyası getdikcə artmaqdadır. İrəvan bugünlərdə Qarabağa Arazboyu əraziləri birləşdirəcək yeni Qafan-Xocavənd yolunun çəkilişinə başlayacağını elan edib. Bununla da işğalçı Qarabağı Ermənistana birləşdirən üçüncü yolun reallaşmasına və Arazboyu işğal edilmiş ərazilərin məskunlaşdırılmasına nail olmaq istəyir. Bu dəfə işğalçılar Matagis kəndini Ağdərə şəhəri ilə birləşdirən su kanalı çəkirlər. Məqsəd həm də işğal edilmiş Ağdam rayonunun əkin sahələrini suvarmaqdır.**

Belə görünür, baş nazir Nikol Paşinyanın Xankəndində "Qarabağ Ermənistandır. nöqtə" sərsəmləməsindən sonra işğalçılar daha da irəli getməkdədirlər. Hesab olunur ki, Ermənistan rəhbərliyi ölkəsinin təcavüzkar olduğunu etiraf etməklə əslində Azərbaycan torpaqlarını hərbi yolla azad etmək şansı yaradıb. Lakin indiki durumda yenə də rəsmi Bakı proseslərə təmkinli yanaşmağın tərəfdarı olaraq çıxış edir. N.Paşinyan hakimiyyətə gəldiyi ilk günlərdə onun konstruktiv mövqe sərgiləyəcəyinə ümidlər var idisə, artıq son bəyanatının ardınca bu ümidlər də torpağa gömüldü. Xalqların sülhə hazırlanması barədə anlaşmaya cavab olaraq İrəvandan kəskin cavabın gəlməsi də bu ilin reallıqlarındandır. Ermənistanın müdafiə naziri David Tonoyan ilin əvvəlində dedi ki, "ərazi qarşılığında sülh" şüarı "yeni ərazilər üçün yeni müharibələr" şüarı ilə əvəz ediləcək. Bu cür həyasız mövqenin ardınca danışıqlardan nəsə gözləməyin mənası qalmır.

Azərbaycan böyük ehtiyatlara, insan resurslarına, güclü orduya sahibdir. O halda ortaya sual çıxır: Azərbaycanın torpaqlarını işğaldan azad etməsinə nə mane olur?

**"Hər hansı bir dövlət müəyyən bir qərar verərkən arxayın olmalıdır ki, verdiyi qərar nəticə verəcək. Məncə, bu illər ərzində müharibədən çəkinməyimizin səbəbi qan tökmədən torpaqların geri qaytarılmasına, danışıqlara müəyyən ümidin olmasıdır. Həm də sonuna qədər bu prosesi aparmağa çalışmışıq ki, beynəlxalq təpki ilə rastlaşmayaq".**

**Ermənişünas alim, politoloq Qafar Çaxmaqlı bu fikirləri "Yeni Müsavat"a açıqlamasında söylədi.**

**Ekspertə görə, ermənilərin arqumenti odur ki, Azərbaycan Dağlıq Qarabağın erməni əhalisini yox etmək, buradan çıxarmaq istəyir:** "Biz də dünyaya göstərmək istəmişik ki, əslində məqsədimiz o olmayıb, əksinə, bu əraziləri Ermənistan işğal edib və faktiki olaraq erməni ordusu buradadır. Deməк, danışıqlar prosesində haqlı tərəf olaraq qəbul edilməyə ümidimiz olub. Amma dünyada heç də həmişə ədalət zəfər çalmır, kim güclüdürsə, onun sözü keçir. Bu işi həll etmək üçün gücə əl atmaqdan başqa yol olmadığını dilə gətirməyə məcbur olmuşuq. Dünya isə bu mövqeyimizi məsələni zorla həll etmək kimi qəbul edib və bizə basqılar başlayıb ki, Azərbaycan təhdid ritorikası ilə çıxış edir... Onsuz da dünya




Azərbaycanın torpaqlarını azad etmək üçün başqa yolunun olmadığını bilir və biz hər cür beynəlxalq təpkilərə əhəmiyyət verməden bu işin dalınca düşməliyidik".

**Q.Çaxmaqlı görülməsi zəruri olan işlərdən bəhs edi:** "Mən dəfələrlə demişəm, biz öz torpaqlarımızda qayda-qanunu bərpa etmək istiqamətində addımlarımızı münaqişənin əvvəlindən atmağa başlamalıydıq, burada separatçı qüvvələri zərərsizləşdirməyə yönəlik tədbirlər görməliydik. Ermənilər işğal zonasında rahat yaşaya bilməməliydilər. Heç kəs bizi buna görə bizi qınaya bilməzdi. Axı dünya qəbul edir ki, Dağlıq Qarabağ Azərbaycan ərazisidir və burada erməni işğalçı qüvvələri var. BMT qətnamələr qəbul edib ki, erməni silahlı qüvvələri bölgədən çıxarılmalıdır. Bütün bunlar əlimizi gücləndirən, bizə hətta Dağlıq Qarabağda partizan müharibələri belə aparmağa imkan verən cəhətlər idi. Çox təəssüf ki, bunları etməmişik. Zənnimcə, biz ayrı-ayrı ölkələrin bu işi həll edəcəyinə sadəlövhcəsinə inanmışıq. Hələ də deyənlər var ki, Qarabağın "açarı" Rusiyadadır. Ağılsızcasına özümüzü inandırmağa çalışmışıq ki, biz məsələni güclə həll etməyə girişsək, Rusiya bizi cəzalandıracaq. Konkret olaraq Qarabağ məsələsini həll etməyə mane olan bizim qərarsızlığımızdır".

**Ekspert deyir ki, Paşinyan hakimiyyətə gələndən sonra ona ümid etmək də sadəlövhlük olub:** "Siz şahidsiniz ki, mən onun daha təhlükəli erməni olduğunu söyləyirdim. Hər zaman bu mövqedə olmuşam ki, Ermənistanın başına kimin gəlməsindən asılı olmayaraq, işğalçılıq siyasəti davam edəcək. Qarabağı Ermənistana birləşdirmək üçün daha fərqli addımlar da atıla bilər və mən bunu gözləməkdəyəm".

**Politoloq Məhəmməd Əsədullazadə isə qəzetimizə açıqlamasında xatırlatdı ki, Qarabağ münaqişəsi Cənubi Qafqazda hazırda maraqlı dövlətlərin xüsusilə ABŞ və Rusiyanın maraqlarını toqquşduğu həlli mümkün olan münaqişədir:** "Təəssüf ki, münaqişə regional münaqişədən beynəlxalq konfliktə çevrilib. Burada savaş regionda yeni situasiya yaradacaq, üçüncü dövlətlərin burada iştirakına səbəb olacaq. Əsasən Rusiyanın nəzarətində olan münaqişənin həllində sülh və diplomatik danışıqlar nəticə vermir. ABŞ bizim mövqeyimizə çox yaxın həll formulunun dəstəkləyir. Rusiya isə əksinə. Paşinyanın işğal olunmuş ərazilərdə "miatsum" bəyanatı əslində hərbi əməliyyatları başlamaq üçün Azərbaycana "kart-blanş" verirdi. Bu, danışıqların sonu və Minsk Qrupunun vasitəçiliyini sonu demək idi. Amma proseslər elə vəziyyətdədir ki, Azərbaycanın müharibəyə başlaması birbaşa Rusiyanın təzyiqləri ilə üzləşməsinə səbəb olacaq. Rusiya çalışır ki, Qarabağda "nə hərb, nə də sülh" olsun. Bu status-kimi onun regionda maraqlarına xidmət edir. Azərbaycan üçün Rusiya faktoru hələ ki çəkindiricidir".

**Ancaq politoloq Azərbaycan üçün fürsət yaranacağı qənaətindədir:** "Hesab edirəm ki, yaxınlaşan Rusiya-Türkiyə əlaqələrindən istifadə edib, Moskva ilə daha da diplomatik danışıqları sıxlaşdırıb hərbi yolla əraziləri azad edə bilərik. Moskva bu gün Suriyada, Ukraynada ciddi beynəlxalq nizamı dəyişən müharibələrin müəllifidir. Ona görə də hazırda Qarabağda hərbi əməliyyatların keçirilməsində əsas mane Moskvadır. Azərbaycan yoxsa 10 gün ərzində torpaqlarını işğaldan azad etmək iqtidarındadır. Məhz Ermənistan məcbur olub, bizimlə sülh anlaşması bağlayar. Paşinyan ilk gələndə praqmatik siyasətçi kimi özünü göstərirdi. Regionda sülhün əldə olunması və Ermənistanın inkişafını münaqişənin ədalətli həllində görürdü. Məhz onun Azərbaycan prezidenti İlham Əliyevlə şifahi razılığı, bu il yanvarda İtaliyada ATƏT xarici işlər nazirlərinin zirvə görüşündə birgə bəyannamənin qəbulu göstərirdi ki, Paşinyan Rusiyanın təsirini azaltmaq və ölkəsində demokratik sistemin qurulmasına gedə bilər. Amma daxildə ciddi siyasi basqılar, Moskvanın demarşları Paşinyanın geri çəkilməsinə gətirdi. Başa düşdü ki, o, bununla hakimiyyətini itirə bilər. Ona görə də konkret olaraq sələflərinin yolunu getməyə qərar verdi. Hesab edirəm ki, bu siyasətlə Paşinyan ölkəsində demokratik bir sistem qura bilməyəcək və Qarabağ münaqişəsi erməni cəmiyyətinin inkişafının qarşısını alan "Domokl qılıncı"dı. Bunu siyasilər daha da hiss edirlər. Azərbaycan ilk növbədə öz strateji seçimində addımlarını qətiləşdirməlidir. Həqiqətən yeni dünya nizamında ciddi dəyişikliklər baş verir. ABŞ daha da hərəkətə keçsə, Ermənistanı sıxışdırsa, Rusiyanın bu ölkədə mövqeləri zəifləyər, münaqişəsinin nizamlanması mümkün olar".

**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**



## Terrorçu Breyvik Ermənistan bayrağı fonunda

**Norveçli terrorçu, 80-ə yaxın günahsız adamı güllələyən Anders Breyvik erməni rəssam Maksim Gikinyanı ruhlandırıb. Və o, terrorçunun Ermənistan bayrağı fonunda rəsmini çəkərək sərgiyə çıxarıb.**

Virtualaz.org erməni mənbələrinə istinadən xəbər verir ki, Terlemezyan adına rəssamlıq məktəbini 40 il əvvəl bitirmiş yeddi rəssamın əsərlərindən ibarət "Terlemezyan xatirələri" adlı sərgidə həmin əsər nümayiş etdirilib və sosial şəbəkələrdə qızğın müzakirələrə səbəb olub.

Lakin rəssam deyir ki, Breyviki Ermənistan bayrağı fonunda çəkməklə pis nəsə etməyib. Çünki terrorçu qətliam törədəndə "Ermənistana eşq olsun" ifadəsini işlətmişdi. "Mən cinayət törətməmişəm, terrorçu qruplaşmalara da aidiyyətim yoxdur. O, özünün ağır vəziyyətində erməni xalqını yaddan çıxarmayıb", - Gikinyan deyib.

Ermənistan Rəssamlar İttifaqının sədri Suren Səfəryan isə deyib ki, bu əsəri qəbuledilməz sayır, amma ittifaqın həmin sərginin təşkil edilməsinə dəxli yoxdur. Ona görə də rəssama hansısa qadağa qoya bilməzdi.



## ABŞ-ın Rusiyadakı səfirliyinin müşaviri XİN-ə çağırıldı

**ABŞ-ın Rusiyadakı səfirliyinin müşavir-elçisi Tim Riçardson Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**

APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, Moskvada razılaşdırılmamış aksiyalar barədə yazı ilə bağlı diplomata təqdimat verilib.

Bundan əvvəl səfirliyin saytında və Dövlət Departamentinin Konsulluq məsələləri üzrə idarəsinin rəsmi twitter səhifəsində avqustun 3-də Moskvada keçirilən razılaşdırılmamış mitinqin sxemi yerləşdirilib, yürüşdə iştirakdan çəkinmək məsləhət görülüb.

XİN bunu aksiya iştirakçılarının lehinə təşviqat və Rusiyanın daxili işlərinə qarışmaq cəhdi kimi dəyərləndirib.

Rusiya XİN-in sözçüsü Mariya Zaxarova bildirib ki, rəsmi Moskva ABŞ və Almaniya hökumətlərini diplomatlarının Rusiyanın daxili işlərinə qarışması ilə bağlı məlumatlandıracaq.

Qeyd edək ki, iyulun 14, 27-də və avqustun 3-də Rusiyanın paytaxtı Moskvada icazəsiz aksiyalar keçirilib, nəticədə 1700 nəfər saxlanılıb.

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019

# "Bu adama dərs olmadı..."

## Xalq yazıçısı Anar: "Əgər yazıçılar istəyərlərsə, son dəfə də sədr olmağa razılaşaram..."

## AYB sədrindən sensasion açıqlamalar, sərt ittihamlar

**Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Anar "Yeni Müsavat"a geniş müsahibə verib. Yazıçılar Birliyinin gözlənilən qurultayından danışan həmsöhbətimiz şəxsinə yönəlik ittihamlara çox sərt dildə cavab verib, sensasion fikirlər söyləyib. Söhbətin əvvəlində məlum oldu ki, Anar müəllim Türkiyədə istirahətdəymiş və elə söhbətimiz də ilk iş günündə baş tutur. Odur ki, mətbuatda barəsində yazılanlardan xəbərsiz idi. Amma biz "yardım" etdik, suallarımızla...**

***- Anar müəllim, maraqlıdır, Xalq yazıçısının bu yağışlı yay günləri necə keçir?***

- Yəqin ki, məni istəyənlər var, onlara xoş xəbər deyə bilərəm. Bir həftəlik Marmarisdə dincələndə iki iri əsər yazdım. Biri pyesi tamamladım, "Şəhərin qış gecələri"ni. 90-cı ilin 20 Yanvarına həsr olunub. Mənim bir pyesim var - "Şəhərin yay günləri", onun qəhrəmanlarını gətirmişəm 90-cı ilə. O qış gecəsində, 20 yanvarda bunların başına gələnləri yazmışam. Bu pyesi bitirdim. Digər bir əsəri hələ bitirməmişəm, amma çoxunu yazmışam: "Vaqif - 30". İndi Həsən Seyidbəyli küçəsidir, o vaxt Vaqif küçəsiydi. Vaqif küçəsindəki 30 saylı evdə mən 10 il yaşamışam. O, yazıçıların evi idi. Qonşularım da Fikrət Qoca, Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov, Elçin, Fikrət Sadıq idi. Onlar haqda xatirələr, həm də o ev haqqında yazmağa başlamışam. Sağlıq olsun, hələ məzuniyyətdəyəm, qurtarmaq istəyirəm. Pyesi əllə yazmışam, kompüter götürməmişdim. Gərək onu kompüterə köçürəm, o biri əsəri də tamamlayam. Bax, beləcə hesabat verirəm.

***- İstirahətiniz məhsuldar keçib...***

- Mənim istirahətim işdir də. Başqa vaxt işləməyə imkanım olmur. Ayrı vaxt balaca yazılar yazıram, amma iri yazılar olanda gərək mən heç olmasa on gün Yazıçılar Birliyindən, bu mühitdən, qayğılardan uzaq olum ki, işləyim. Ona görə də ora getdiyim günün səhərindən işləməyə başladım. 4 günə pyesi yazdım, 3 günə də ikinci əsəri. Gələn il 20 Yanvar faciəsinin 30 illiyidir, istəyirəm pyesi teatra təqdim edim.

***- Anar müəllim, Yazıçılar Birliyinə ayrılan vəsait çox müzakirə olundu. Neylədiniz həmin vəsaiti?***

- Hamısını maddələrə ayırdıq ki, bu qədər kitab çap edəcəyik, bu qədər mükafat verəcəyik, bu qədər avadanlıq alacağıq, bu qədər filiallara göndərəcəyik, bu qədər yardım edəcəyik. Bunlar elə bilirdilər ki, vəsaitin hamısı yardıma getməlidir. Yardıma gedə bilməz axı. Başqa işlər də var. Ədəbiyyatın inkişafı üçün verilib də, yardım üçün verilməyib ki. Özü də bura "Sovbes" deyil axı, yaradıcılıq təşkilatıdır. Biri gəlir ki, "xəstəyəm", biri gəlir "qohumum ölüb". İmkan daxilində çalışırıq verək, amma bu pul rezin deyil axı. Kim ki, ala bilmir, başlayır ki, "ciblərinə qoydular". Kim cibinə qoyur? Boş söhbətdir hamısı. Sonra da vəsait ayrıldı, Şüvəlandakı bizim Yaradıcılıq Evinin təmiri üçün. Orada təmir işlərini başlamışıq.

***- Yazıçılar Birliyinin qurultayı ilə bağlı müzakirələr yenidən qızışıb. Son məlumata görə, gələn ilə qalıb. Təsdiqləyirsiniz?***

- Yəqin gələn il olacaq. Burada iki hadisə var: Yazıçılar Birliyinin qurultayı, bir də Yazıçılar Birliyinin 85 illiyi. 80 illiyini biz ikisini birgə elədik, amma onda qarışıqlıq oldu. Dekabr ayında, deyəsən, Nəsiminin yubileyi keçiriləcək. İstəyirəm yubiley ərəfəsində biz də Yazıçılar Birliyinin 85 illiyini keçirək ki, ora gələn qonaqların bir hissəsi bizim tədbirdə, bizə gələnlər də orada iştirak eləsin. Gələn ilin yazında da yəqin qurultayı keçirərik. Ayı deyə bilmərəm.



***- Maraqlıdır, növbəti dəfə sədrliyə hazırlaşırsınız, yoxsa varis planı üzərində işləyirsiniz?***

- Mən bura gələndən varis planı üzərində işləyirəm.

***- 1987-ci ildən?***

- 87 ilk ilimdir, amma 88-89-dan artıq bu barədə fikirlərim var idi.

***- Tapmısınız?***

- Cürbəcür variantlar fikirləşirəm. Hələ ki qəti bir adamın üstündə dayana bilmirəm.

***- Kənardan belə görünür ki, yaşlı nəslin nümayəndələri sizi yenidən sədr postunda görmək istəyirlər, amma gənclər özləri ortaya iddia qoyurlar...***

- Gənclər kimi istəyirlər?

***- Elə "Yeni Müsavat"ın son sayında iddialı gənclərin adları və mövqeləri var. Məsələn, Emil Rasimoğlu, Fuad Cəfərli, Tural Turan adlı gənclər namizəd olacaqlarını deyiblər.***

- Lap yaxşı.

***- Tanıyırsınız?***

- Vallah onların adlarını ilk dəfədir eşidirəm. Onlar Yazıçılar Birliyinin üzvüdürlər? Üzv olmadan sədr olmaq istəyirlər? (Gülür) Çox yaxşı, qurultayda namizədliklərini verərlər, üçü birdən sədr olar. Mən də baxıb fəxr edərəm. (Yenə gülür)

***- Qurultay mövzusunda ən çox tənqidi fikirlər sizin əbədi və əzəli rəqibiniz Əkrəm Əylislidən gəlib. Oxumusunuz?***

- Yox. O nə deyir?

***- Deyir ki, 80 yaşdan sonra vəzifə haqda düşünmək insanın öz-özlüyündə mənəvi yoxsulluğunun göstəricisidir. Siz nə deyirsiniz?***

- Onun mənəvi yoxsulluğu bütün Azərbaycana məlumdur. Ona görə mən onun mənəvi varlığı və yoxluğu haqqında heç bir şey demək istəmirəm. Onun kim olduğunu bütün Azərbaycan gördü.

***- "32 il bir postda oturmaq və bununla fəxr eləmək mənə qəribə gəlir". Bu fikirlər də Əkrəm Əylisliyə məxsudur...***

- Qəribə gəlsin. Çünki 32 ildir mən bu postda oturmuşam, 32 ildir o, bu postun həsrətini çəkir. Bu da mənə qəribə gəlir. Xahiş edirəm, belə də yazın.

***- Əkrəm Əylisli daha sonra deyib ki, SSRİ məkanındakı yazıçılar 70 yaşdan sonra rəhbər vəzifədə olmayıblar. Hətta Türkmənistanda Berdı Kerbabayev, Qazaxıstanda Muxtar Auezov kimi, bu vəzifədə uzun müddət oturanlar da... Siz də o dövrə və yazıçılara bələdsiniz. Haqq qazandırırsınız dediklərinə?***

- O, sovet dövrü üçün nostalgiya keçirirsə, artıq o dövr keçdi. Ona görə də bu gün sovet dövrünün meyarları ilə fikirləşməsin. Deyir "ayının yüz oyunu var, bir armudun üstündə". Hamısı buna görədir ki, mən niyə burada oturmuşam, o oturmalıydı. Oturub işləyəydi də. "Yazıçı" Nəşriyyatını satdı, batırdı. Mən bir dəfə dedim, yazıçıların bir dənə nəşriyyatı var idi, onu da batırdı, satdı, ləğv olundu, getdi. Deyir Yazıçılar İttifaqı büdcəyə salınmışdı, ona görə qaldı. Bəli! Sən də oranı büdcəyə salaydın da! Sənin nüfuzun mənimkindən az idi? Elə səni deputatlığa dürtəndə deyəydin ki, "Yazıçı" Nəşriyyatını da büdcəyə daxil edin. Demədin ki? Yaxşı, onda nə istəyirsən bizdən? Yazıçılar Birliyini də, onun ədəbi orqanlarını da biz saxladıq. Sən nəyi saxlaya bildin? Ancaq həsəd, ancaq paxıllıq, ancaq həmişə əleyhimə nələrsə demək... Adam yazıçı kimi iflasa uğrayanda başlayır özgələrinə söz atmağa, vəssalam!

***- Belə çıxır ki, artıq Əkrəm Əylislini oxumursunuz, eləmi?***

- Bir şey yazır ki, oxuyum? Axırıncı yazdığı ermənipərəst əsəri idi də. Oxudum, Yazıçılar Birliyinin adından da bəyanat verdik. Ən yumşaq bəyanat yenə bizimki oldu. Biz qeyd etdik ki, Əkrəmin vaxtilə yaxşı əsərləri də olub, yazıçıdır, yazıçı kimi biz bunu inkar etmirik, amma bu əsəri ("Daş yuxular"-E.P.) həm bədii cəhətdən sıfırdır, həm də başdan-ayağa xəyanətdir Azərbaycana. Bunu da yazdıq. Ondan sonra bir şey yazıbsa, mənim xəbərim yoxdur.

***- Əkrəm Əylislinin son açıqlamalarına qayıdaq. "O vaxtı AYB sədrliyinə Anarı mən təklif eləmişdim. Bu günə kimi o səhvimi özümə bağışlamıram. Növbəti qurultayda hamının qarşısında çıxış elədim, İsmayıl Şıxlıdan üzr istədim, seçimimdə səhvə yol verdiyimi boynuma aldım və qurultayı tərk elədim. Ondan sonra AYB-nin qapısından içəriyə heç vaxt ayaq qoymadım..." Bu fikirlərlə bağlı nə deyə bilərsiniz?***

- Nə deyir, özü bilər. Amma dedikləri başdan-ayağa yalandır. İsmayıl Şıxlıdan üzr-filan da istəməyib. Niyə də istəyəydi? Əkrəmdən fərqli olaraq, İsmayıl müəllim abırlı, ağayana və gözütox adam idi. Birinci katib vəzifəsindən də səhhətinə görə, öz xoşuyla, hətta israrlı təkidiylə getmişdi. Mənim namizədliyimi də dəstəkləmişdi. O, qurultayda da Əkrəmin namərd çıxışından sonra yenə məni müdafiə etdi. Əylisli heç olmasa dünyasını dəyişmiş layiqli insanların adlarıyla möhtəkirlik etməsin. Ümumiyyətlə, yalan danışmaq bu adamın peşəsi olub. Qurultay da tərk-filan etmədi. Səhəri gün plenumda da iştirak etdi və qurultaydakı çıxışına görə məndən üzr istədi. - Anar mən də belə adamam - dedi. Bəli, belə adamdır.

Amma bu, hələ qəti qərara gələ bilmir ki, mənim namizədliyimi necə verib. Çünki gah deyir mən Anarı namizədliyini irəli sürmüşəm. Düz deyir, namizədliyimi birinci o dedi. Amma bundan sonra bir neçə adam - İsa İsmayılzadə, Tofiq Bayram, İsi Məlikzadə, İsmayıl Şıxlının özü məni müdafiə etdilər, mən seçildim. Bu, bir vaxtlar həmişə fəxr edirdi ki, Anar mənim təklifimlə seçildi. Sonra yazır ki, Anarı Yazıçılar İttifaqına Vaqif Hüseynovun göstərişi ilə seçdik. Deməli, bu, Vaqif Hüseynovun tapşırığını yerinə yetirib?

***- DKT sədri?***

- O vaxt DTK-da deyildi. Ya komsomolda, ya Mərkəzi Komitədə işləyirdi. Bundan başqa, deyir ki, gizli səsvermədə Mövlud Anarın səslərini artırdı. Birincisi, rəqib yox idi, mən tək idim. İsmayıl Şıxlı öz namizədliyini geri götürdü. İkincisi, açıq səsvermə idi. Açıq səsvermədə səsi nə cür artırmaq olar? Elmira Axundova kişi kimi - onda bəzi kişilərdən artıq mərdlik var - buna cavab verdi ki, balam, gözümüzün qabağında oldu, açıq səsvermə idi, sən də birinci əlini qaldırdın, Əkrəm Əylisli, niyə yalandan deyirsən ki, Anar üçün gizli səsvermə idi? Mənim seçilməyimi Vaqif Hüseynovla bağlamaq isə sadəcə, siyasi donos idi. Əkrəmin özü də bilir ki, dedikləri hamısı yalandır. Bu adama dərs olmadı, bütün xalq ona nifrətini bildirdi. Xalqdan, millətdən üzr istəməkdənsə ki, mən sizi ermənilərin ayağına vermişəm, ermənilər bundan Azərbaycana qarşı istifadə edirlər, xəyanətini boynuna almaqdansa, yenə də orada-burada mənə sataşır. Elə bilir ki, daha keçib getdi, unuduldu. Bu adam yalan danışmaqdan utanıb, qızarmır. Deyir ki, Anar Bitovu Azərbaycana qonaq çağırıb, o da deyib ki, Əkrəm Əylislini incitdiyiniz üçün mən Azərbaycana gəlmərəm. Bitovla 50 ildir heç bir ünsiyyətdə olmamışam, təbii ki, heç vaxt onu Azərbaycana də dəvət etməmişəm ki, belə də cavab alım. Ümumiyyətlə, bu adam özü haqqında miflər yaratmaqdan xoşlanır. Bir dəfə yazmışdı ki, o vaxt (yəni sovet vaxtı) onun, yəni Əkrəmin adı SSRİ-də gur-gur gurlayırdı. Bilmirəm daha özünü kimlə qarışıq salıb - Müslüm Maqomayevlə, ya Alla Puqaçovayla? Belə yerdə deyirlər - ətin tökülsün...

***- Anar müəllim, AYB-nin nə qədər üzvü var?***

- 1700-dən artıq olar.

***- Məşhur kinoda deyildiyi kimi, qayıdaq yenə sitatlara... Əkrəm Əylisli deyib ki, bu gün həqiqi istedadı olanlar AYB üzvü olmaqdan utanırlar. Bu sözünə nə deyirsiniz?***

- Deyir də... (Çaydan bir qurtum alandan sonra davam edir-E.P.) Bununla bütün yazıçıları təhqir edir. Deməli, AYB üzvü olan bu qədər yazıçının hamısı utanır?

***- Anar müəllim, sovet vaxtları plenumlar keçirilirmiş, indi bunu nə əvəz edir?***

- Bəli sovet vaxtı plenumlar tez-tez olurdu. Əkrəmin bədbəxtliyi və yazıçı kimi iflasa uğraması xasiyyətinin üç naqis cəhətiylə bağlıdır. Dəhşətli dərəcədə şöhrət hərisidir. İkincisi, hamının hər uğuruna dəhşətli paxıllıq edir, üçüncüsü də özü haqqında, yazıları haqqında ifrat dərəcədə yüksək fikirdədir. "Burada mənəm, Bağdadda kor xəlifə" desəydi dərd yarıydı. Burada da mənəm, Bağdadda kor xəlifə də elə mən özüməm deyir.

***- Doğrudanmı AYB-də nizamnaməyə əməl olunmur? Əkrəm qeyri-demokratik mühitdən şikayətlənib...***

- O işləyən vaxt bəlkə də olmayıb, amma mən işləyən vaxt demokratik şərait həmişə olub, indi də var.

***- Həm də onu deyir ki, yazıçıların bəzilərinin məqsədi AYB-dən nəsə qoparmaqdır, buna görə də hay-küy salırlar...***

- Bunu düz deyir və elə biri o özüdür də.

***- Anar müəllim, hər ikiniz 80 yaşınızı adlamısınız.***

- O məndən bir yaş böyükdür. O, 37-ci ildəndir, mən 38-dən.

***- Açığı, ahıl insanların savaşı heç də xoşagələn deyil. Bunun fərqindəsiniz?***

- Mənim onunla heç vaxt, heç bir işim olmayıb. Mən, əksinə, onu həmişə dəstəkləmişəm, haqqında məqalələr yazmışam. Onun haqqında Moskva mətbuatında birinci müsbət rəyi mən yazmışam. Azərbaycanda, onun yubileyində təbrik məqaləsi yazmışam. Onun Komsomol Mükafatı almağına kömək etmişəm. Mən sədr olandan sonra onu gətirmişəm, burada katib eləmişəm. Yubileyində Heydər Əliyevdən xahiş etdim ki, ona orden versin. Dedi, axı mənim dalımca danışıb. Dedim, mənim də dalımca danışıb. Amma yazıçıdır. Dedi, onda yaz. Müraciət etdim, orden verdi. Mənim tərəfimdən ancaq yaxşılıq görüb. Atam onun Yazıçılar İttifaqına qəbul olunması üçün zəmanət verib. Bəlkə də bu atamın səhvi olub. Axı belə nankor və nanəcib çıxacağını nə biləydi? Bütün bunların müqabilində o, yeri gəldi-gəlmədi başlayıb mənim haqqımda iblisanə bir şey deməyə. Özü bilir ki, mən heç kəsə həsəd eləmirəm. Onun isə bütün ömrü hamıya həsəd eləməklə keçib. Biri bir az şöhrət qazandı, o saat onun gözünün düşməni olur.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019

# “Elçibəyin, Atambayevin, Qamsaxurdiyanın faciəsinin səbəbi...”

## Sərdar Cəlaloğlu: “Xruşşov, Brejnev kimi rəhbərlər görmüş xalqın ictimai şüuru Elçibəyi qəbul edə bilmirdi”

**Bəzi postsovet ölkələrində prezidentlərin taleyi nə sirri-xudadırsa, zülmətə çevrilir. Elçibəyindən Saakaşvilisinə, Qamsaxurdiyasından Atambayevinə qədər... Niyə belədir? Nə üçün keçmiş sovet respublikalarında siyasi dəyişikliklər ağrılı keçir?**

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu** “Yeni Müsavat”a bu mövzuda müsahibəsində olduqca maraqlı məqamlara toxunub: “Bilirsiniz, bu proseslər keçid dövrünün xarakteri ilə bağlıdır. 300 illik imperiyadan azadlığa keçid mürəkkəb olur. Çünki bu aralıqda cəmiyyətin bir hissəsi keçmişin xiffətini çəkir, bir qisim bu günlə yaşayır, az qrup gələcəyi düşünür. Məsələn, Elçibəyi niyə yıxdılar? Çünki həmin dövrdə xalqın dünyagörüşü ilə Elçibəyin idarəetməsi ziddiyyət təşkil edirdi. Xruşşov, Brejnev kimi rəhbərlər görmüş xalqın ictimai şüuru Elçibəyi qəbul edə bilmirdi. Onlara görə gərək başçı asa, kəsə, xalqla görüşməyə... Ona görə xalqın gözləntiləri ilə iqtidarın idarəetməsi üst-üstə düşməmişdi.

O halda ya tədricən mərhələli siyasət yürütməlisən, ya da xalqın şüurunu dəyişməlisən. Qamsaxurdiya, Atambayev kimi liderlərin faciəsi ictimai şüurun hazırlıqlı olmaması ilə bağlıdır. Bir neçə il qabaq Azərbaycanda bəzi müxalifət liderləri “ərəb baharı”nın bizə sıçrayacağını bəyan edirdilər. Amerikalı bir diplomatla görüşəndə demişdi ki, diktaturadan demokratiyaya birbaşa keçid alınmır. Ona görə Fukuyama Amerika haqda yazırdı ki, bir dönəm sonra köhnələr yenilənməlidir. Çünki keçid hakimiyyətləri olmayanda kataklizmlər qaçılmazdır. Bakıda “Gənclik” metrosu tərəfdə “milyonçular məhəlləsi”nə gedin, milyonluq evlər tikilib, amma yol pis gündədir. Çünki yol ictimai istifadədir. Onun şüuru yoxdur ki, evindən çölü fikirləşsin. Avropada isə evin içi tör-töküntü ola bilər, amma küçələr abad, gül-çiçəkdir. Bax bayaq dediyimiz şüur məsələsidir, bizim mentalitetimizdir, Azərbaycanda ictimai maraq yoxdur. Etiraf etməliyik ki, xalqın durumu ilə iqtidar ovqatı eynidir. Elçibəy fərqliydi deyə devrildi.



***- Yeni Elçibəyin iqtidardan gedişi həm də buna görə oldu?***

- Xalq Cəbhəsinin səhvi Vəzirovla koalisiya yaratmamaq oldu. Sən iqtidarının uzunömürlü olmasını istəyirdinsə, həm Mütəllibov, həm Vəzirov, həm də Heydər Əliyevlə koalisiya qurmalıydın. Mən bəzi liderlərə həmişə deyirdim ki, biz elə etməliyik fors-major vəziyyət yarananda iqtidarla bir araya gəlməyi bacaraq. Əgər müxalifət iqtidarla koalisiyaya hazır olacaqsa, ritorikanı dəyişməlidir. Mən hər zaman deyirəm ki, iqtidarı sıradan çıxarmaq, tam məhv etmək yox, onunla əməkdaşlıq etmək lazımdır. Zaman-zaman bu əməkdaşlıqlar da olub. İqtidar Əli Kərimli ilə gizli əməkdaşlıq edib. Mən indi əməkdaşlıq etmək təklifini səsləndirəndə, satqın çıxarırlar, hakimiyyətə işləməkdə ittiham edirlər. 2005-ci ilin parlament seçkiləri vaxtıydı. Hökumət müxalifətə 30 mandat verirdi. Ancaq bizim dostlar 75 mandat tələb edirdilər. Konkret olaraq, Əli Kərimli 30 mandatla razılaşmırdı. O dövrdə biz Rino Harnişlə (ABŞ-ın o illərdə Bakıdakı səfiri - E.S.) görüşmüşdük. İqbal Ağazadə, Arif Hacılı və mən idim. Harniş dedi ki, niyə bu təklifi qəbul etmirsiniz, yaxşı təklifdir, gedin seçkiyə, 30 mandatı udun, sonra mübarizənizi davam etdirin. Sözümün canı budur ki, iqtidar həmişə təşəbbüskar olub, müxalifət bu əməkdaşlıqları pozub. Yeni siyasi reformasiyaya keçid olmalıdır. Konsensus olmayan cəmiyyətdə əməkdaşlıq mümkün deyil. Səni xain çıxarırlar. Qırğızıstanda Atambayev müxalifətdir, hakimiyyətə gələn onun adamı olub. Görün onların əlaqələri nə şəkildə pozulub ki, Atambayevi tutdurdu. Ümumiyyətlə, keçmiş SSRİ məkanında demokratikləşmə prosesi düzgün getmir, yerli demokratikləşmə barədə əsərlər yazılmır. Bu gün iqtidardan çox müxalifətdən, cəmiyyətdən qaynaqlanan problemlər var. Bunları yazmaq, demək lazımdır.

Lenin, Engels manifest hazırlamışdı. Orada kommunizmin üç tərkib hissəsini sosialist ədəbiyyatı adlandırmışdı. Sosial ədəbiyyat olmadan sosial inqilab olmaz. Biz Şah İsmayıl Xətaidən, Nadir Şahdan, Şah Təhmasibdən dərs götürməliyik. Onların idarə etməsi İsa Qəmbərə, Əli Kərimliyə, Sərdar Cəlaloğluna istinad nöqtəsi olmalıdır. Amma o istinadı ayağımızın altından çəkirlər.

***- Sizcə, gürcülər də Saakaşvilinin qədrini bilmədilər?***

- Eyni problemdir. Müstəqil olandan sonra şüur formaları dəyişmədi. Azərbaycanda deputatların, ziyalıların çıxışlarına baxın. Biz hardasa 14-16-cı əsrlərdə yaşayan azərbaycanlı ilə eyni düşünürük. Çünki şüurumuz tayfa şüurudur. Tayfa fiziki qohumluq anlamı daşımır, bir neçə adamın yığışması, öz maraqlarına uyğun idarə etməsindən gedir. Cəmiyyətdə tayfa şüurudur...

***- Keçmiş sovet ölkələrində demokratikləşmənin düzgün getmədiyini vurğuladınız, sizcə, proses uzun çəkəcək?***

- Misal üçün, Polşada 5 ildə dəyişməyə məcbur elədilər. Əvvəlcə vəziyyət acınacaqlı idi, insanlar çörək tapmırdı. Lakin fundamental dəyişikliklər oldu, Polşa inkişaf elədi, Avropa dövlətinə çevrildi, iş yerləri açıldı. Azərbaycanda isə keçid dövrü uzandı. İlk növbədə dövlət məqsədyönlü siyasət aparmalıdır.

Amma gecə-gündüz meyxana gedir. Bir dəfə Qacardan, Xətaidən müzakirə açmırlar. Danışanda da onların əleyhinə danışırlar. Türklər bütün sultanlar haqda flmlər çəkib. Biz bir Fətəli xan, bir Cavad xan filmləri çəkmişik. Sonuncu da qadağan olunub. Sovet vaxtı Xətai haqda çox zəif bir film ekranlaşdırılıb. Nə Səttarxan, nə Nadir Şah haqda filmlər çəkirik. Xalq öz tarixindən xəbərsizdir. Xətainin dövlət idarəçiliyi, rüşvətlə bağlı mövqeyi haqda danışmaq əvəzinə deyirlər ki, niyə şiə namazı qılırdı. Əşi, lap Allahsız idi. Biz dini tarixi yox, dövlət tariximizi araşdırırıq.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

# Bişkekde Atambayevin onlarla tərəfdarı saxlanıldı



**Qırğızıstan polisi paytaxt Bişkekdə iğtişaşlar zamanı sabiq prezident Almazbek Atambayevin 40-a yaxın tərəfdarını saxlayıb. «RİA Novosti»nin xəbərinə görə, bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb.**

Baş verən iğtişaşlarda 1500-ə yaxın şəxsin iştirak etdiyi bildirilir. Etirazçılar mağazaların vitrinlərini sındırıb, zibil qutularına od vurub, nəzarət kameralarını sıradan çıxarıblar.

Məlumata görə, A. Atambayevin sabiq aparat rəhbəri Fərid Niyazov da həbs edilib. O, sabiq dövlət başçısının saxlanılması ilə bağlı keçirilən əməliyyatda xüsusi təyinatlıları girov götürməkdə ittiham edilir.

A. Atambayevin müşaviri Kunduz Joldubayeva bildirib ki, Fərid Niyazov 48 saat müddətinə saxlanılıb.

F. Niyazov 2017-ci ilə qədər A. Atambayevin Administrasiyasına rəhbərlik edib. Həmçinin o, indiki prezident Sooronbay Jeenbekovin seçki qərargahının rəhbəri olub.

# “Müsavat, AXCP hansı cəhətdən fərqlənir ki?”

## ADP sədri: “Siyasi müstəvi küçələrdən sosial şəbəkələrə köçüb”

**Son vaxtlar Azərbaycan Demokratik Partiyasının (ADP) fəallığı əvvəlki vaxtlara nisbətdə azalıb. Siyasi müstəvidə hakim mövqe tutan müxalif partiyalardan biri - ADP-nin son zamanlarda fəallığının azalmasının səbəbi nədir? Partiyanın gələcək planları nədən ibarətdir?**

Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu modern.az-a açıqlamasında partiyasının fəallığınını küçə və meydanlardan sosial şəbəkələrə keçdiyini etiraf etdi.

“Siyasi partiyaların fəallığı siyasi gündəmlə bağlıdır. Bu gün Azərbaycanda siyasi fəallığı tələb edən real hadisələr baş vermirsə, partiyaların fəallığı cəmiyyətə heç nə vəd eləmir. Digər tərəfdən də Azərbaycanda son vaxtlar siyasi müstəvi meydan, küçələrdən sosial şəbəkələrə köçüb. İnsanlar sosial şəbəkələr vasitəsilə siyasi məlumat alır, siyasi diskussiyalarda iştirak edərək siyasi partiya və liderlərin fəaliyyətini izləyirlər. Ən çox sosial şəbəkələrdə iştirak edən partiyalardan biri bizik. Bu baxımdan küçə və meydanlarda bizi görməmək normaldır. Əgər sosial şəbəkələrdə çıxış etməsək, bu halı qınayacaqlar”.

**Sərdar Cəlaloğlu digər partiyaların da siyasi aktivliyini müşahidə etmədiyini əlavə edib:** “Müsavat, Azərbaycan Xalq Cəbhəsi Partiyası Demokratik Azərbaycan Partiyası ilə hansı cəhətdən fərqlənir ki? Ölkədə elə bir məsələ yoxdur ki, biz ona həssas mövqe nümayiş etdirməyək”.

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019

**Avropadakı "söyüş müxalifəti" bir-birini "qırır". Əvvəllər Azərbaycan hakimiyyətinin yüksək pilləsində təmsil olunanları, onların ailələrini təhqir edən bu müxalifətin öndə gedən təmsilçiləri eyni sözləri indi də bir-birilərinin ailələri üçün deyirlər.**

# Avropadakı müxalifət bir-birini "qırır" - Son gəlişmələr





## Fərəc Quliyev: "Azərbaycanın siyasi mühitinə bu şəxslər mənəviyyatsızlıq gətirməklə məşğuldurlar"

## Əli Orucov: "Xaricdəki söyüş makinasının Azərbaycan cəmiyyətinə, ictimai fikrə təsiri yoxdur"

Fransadakı mühacir Vidadi İsgəndərlinin Londonda yaşayan hüquq müdafiəçisi Qurban Məmmədova etdiyi videomüraciət buna sübutdur. Orada normal bir ifadəyə rast gəlmək mümkün deyil. Başdan-ayağa söyüşlərdən ibarətdir. Bunun ardınca da V.İsgəndərli ilə Azərbaycandan Ata Abdullayevin bir-birini təhqir edən, ən ağır söyüşlərin işlədildiyi videonun yayılması gərginliyi daha da artırıb. Son olaraq da, mühacir Rəfael Priyev video yayıb. O, Milli Şura sədri Cəmil Həsənlini, AXCP rəhbəri Əli Kərimlini təhqir edərək, hədəfinin bundan sonra hakimiyyət deyil, bu şəxslər olacağını bəyan edib.

Bütün bu sadaladıqlarımıza diqqət yetirdikdə görürük ki, Avropadakı müxalifət özünü bitirmək, tamamilə gözdən salmaqla məşğuldur. Siyasi mübarizənin ən pis yolunu seçən bu şəxslər nə etdiklərini özləri də bilmir, heç bir əxlaq normalarına əməl etmirlər. Artıq iş o həddə çatıb ki, ölkə daxilindəki müxalifət də onlara etiraz etməyə başlayıb.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev yaranan vəziyyətdən çox təəssüfləndiyini dilə gətirdi:** "Bu çox ağır məsələdir. Bizim mentalitetə uyğun olmayan, millətimizə yaraşmayan davranışlardır. Siyasəti bir tərəfə qoyaq. Bu cür davranış sərgiləməyi insan özünə necə sıxışdıra bilər? İnsan biri ilə düşmənçilik etsə belə, onun namusuna bu cür baxmaz, özünü bu şəkildə alçaltmaz. Sənin biri ilə düşmənçiliyin varsa, onun arvadını, övladlarını məsələyə qatmaq nə dərəcədə doğrudur? Türk adət-ənənəsində belə hallar yoxdur. Hətta düşmənlər belə son anda o qədər mərd olurdular ki, bəzən ailələrini bir-birinə etibar edirdilər. Tarixdə belə nümunələrimiz az deyil. Belə məsələləri nəzərə almaq lazımdır. Təəssüf ki, Azərbaycanın siyasi mühitinə bu şəxslər mənəviyyatsızlıq gətirməklə məşğuldurlar. Məqsəd millətin var olmasına, onu inkişaf etməsinə, torpaqlarımızın qalmasına, işğal edilmiş ərazilərimizin geri qaytarılmasına yönəlməlidir. Burada strateji olaraq bir yanaşma olmalıdır. Məncə, bunların kökündə bir ideya ətrafında birləşmə durmur. Yanaşmalarda müxtəlif ideologiyalar ola bilər. Bu da normaldır. Normal olmayan bu cür davranışlardır. Sizə kiçik bir epizodu deyim. Biz Ordubadda fəaliyyət göstərəndə çobanı öldürüb qoyun sürüsünü aparmışdılar. Mən ermənilərin qatarını girov götürdüm. Orada 250-yə qədər erməni var idi. Dərhal əsir qadınları, uşaqları, qocaları və xariciləri göndərdim. Sonra başabaş bir qoyuna bir erməni dəyişdim. Qəhrəmanlığım üçün bunları demirəm. O məqamda belə biz qadınlara, uşaqlara fərqli yanaşdıq. Biz ermənilərə qarşı o münasibəti ortaya qoymuşuqsa, bir-birimizə qarşı bu cür davranmamalıyıq. Adamlar nəyə görə bir-birinin ailələrinə dil uzadırlar? Gedib Avropada oturub, demokratiyadan danışırlar. Öz aləmlərində dünyaya demokratiya verən ölkələrdə yaşadıqlarını düşünürlər, amma davranışlarının fərqində deyillər. Onların ailələrinə dil uzatdıqları şəxslər cinayətkar olsalar belə, axı onların həyat yoldaşları, övladları buna görə məsuliyyət daşımırlar? Bu, demokratiyanın çox sadə bir prinsipidir. Belə halları siyasətə qatmaq qətiyyən olmaz. Hesab etmirəm ki, onları çağırışlarla sahmana salmaq olar. Bunun Azərbaycan siyasətinə, Azərbaycan türkünün mübarizə tarixinə heç bir aidiyyəti yoxdur. Siyasi palitrada olan insanları belə şəxslərlə əməkdaşlıq etməməyə, onlarla əlaqələr qurmamağa çağırıram. Belə pis ənənələri cəmiyyətimizə gətirmək qətiyyən olmaz. Bu, Azərbaycan xalqının, türk etnosunun ənənələrinə, İslam qaydalarına söykənən, tərbiyəli şəkildə vəziyyəti yaxşıya dəyişmək üçün bir yoldur. Bunu praktikada həyata keçirmək lazımdır. Çox təəssüf edirəm ki, bu cür davranışlar vardır. Ciddi platforma ətrafında Azərbaycanda dəyişiklik etmək istəyənlərin bu tipli şəxslərlə əməkdaşlıq etmələrini məsləhət görmürəm".

**AMİP katibi Əli Orucov "söyüş müxalifəti" ilə heç bir əlaqələrinin olmadığını qeyd etdi:** "Bizim xarici müxalifət adlandırılan müxalifətlə uzaqdan-yaxından heç bir əlaqəmiz yoxdur. Şəxsən mən heç onları o qədər də izləmirəm. Rəfael adlı şəxsi də indi sizdən eşitdim. Ona görə də onların arasında nələrin baş verməsindən, kimin kimi söyməsindən, təhqir etməsindən məlumatım olmur. Lakin müəyyən insanlar bu barədə məlumat verəndən sonra baxıb görürəm ki, həqiqətən də xoşagələn hallar baş vermir, heç bir etik, əxlaq normaları gözlənilmir. Belə şeylər cəmiyyətimizə də hörmətsizlikdir. Mübarizə və rəqabət inkişaf deməkdir. Lakin bunu söyüşlə, təhqirlə aparmaq kökündən yanlışdır. Mən bir şey deyim, xarici müxalifət adlandırılan həmin simalar ümumi müxalifəti təmsil etmir və edə də bilməz. Azərbaycan müxalifəti demokratik, sivil, etik və əxlaq normaları çərçivəsində mübarizəsini aparır. Hətta görürsən ki, müxalifətin özü xarici müxalifətin mənəvi terroruna, hücumlarına məruz qalır. Onların bu hərəkətləri Azərbaycandakı müxalifətə də zərbə sayıla bilməz. Çünki hərə öz adı ilə danışır və bu danışıqla öz kimliyini, öz əxlaq və tərbiyəsini ortaya qoyur. Bunlar tam ayrı-ayrı şeylərdir və xarici müxalifətlə daxili siyasi müxalifəti eyniləşdirmək, əlaqələndirmək, bir tərəziyə qoymaq tamamilə yanlışdır və bu iqtidarın təbliğatından başqa bir şey deyil. Çünki hakimiyyət təbliğatı həmin qrupları da daxili siyasi müxalifətin gözünə qatmaqla mənfi imic formalaşdırmağa çalışır. Məlumdur ki, xaricdəki söyüş makinasının Azərbaycan cəmiyyətinə, Azərbaycan ictimai fikrinə təsiri yoxdur. Həmçinin onların hakimiyyətə gəlmələri də heç ehtimal edilmir. Mən demirəm ki, xaricdəki müxalif fikirli insanların hamısı bu cür tərbiyəsizlik edirlər. Qətiyyən belə deyil. Nə yaxşı ki, sağlam qüvvələr daha çoxdur. Sadəcə, onların səsi az eşidilir. Bir qədər fəal deyillər. Bundan başqa, sanki cəmiyyətin özündə də hay-küyçülüyə, pafosa, populizmə, söyüşə, nifrətə, avantüraya meyllənmə hiss olunmaqdadır. Narahatverici məqam budur. Bunu yaradan səbəbləri köklü surətdə araşdırıb tapmaq və aradan qaldırmaq lazımdır. Çünki nifrətə, düşmənçiliyə, tərbiyəsizliyə, əxlaqsızlığa, zorakılığa əsaslanan qüvvələrə meyllər gələcəkdə çox ağır fəsadlar verə bilər. Bu tendensiya dayandırılmalıdır. Bunun üçünsə ilk növbədə daxili ictimai-siyasi, o cümlədən iqtidar-müxalifət münasibətlərini qaydaya salmaq lazımdır ki, cəmiyyət daxilində yığılıb qalan hirs-hikkə, dözümsüzlük aradan götürülsün".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

---

# Təhsil elə olmalıdır ki, AES tikəndə işlədə biləsən



**Xalid KAZIMLI**

**Orta yaşlı və ahıl adamlar söhbətə nə qədər "indiki cavanlar...", "bizim vaxtımızda..." kimi trafaret sözlərlə giriş verərək, giley-güzar etsələr də, bir bariz həqiqət göz önündədir: indiki cavanların içində də xeyli mərifətli, savadlı, qabiliyyətli, ən ümdəsi, vətənpərvər və insanpərvər övladlar çoxdur.**

Cüvəllağılar, əhlikeflər, sabahını düşünməyənlər, tənbəllər və sair bu kimi bivec gənclər 100 il əvvəl də vardı, 50 il qabaq da, 25 il öncə də, bu gün də var, 50-100 il sonra da olacaqlar.

Bu günlər ali məktəblərə qəbul olunan gənclərin hansı universitetin hansı fakültəsinə düşmələri barədə məlumatlar açıqlandıqda, sosial şəbəkələrdə övladlarının uyğun nailiyyətlərini və öz fərəhlərini dost-tanışlarıyla bölüşən valideynlər çox idi.

Son illər bu bir ənənəyə çevrilib. Sosial şəbəkə üzvü olan valideynlər övladlarının təhsil sferasındakı uğurlarını mütləq bu platformada başqalarına çatdırır, təbrikləri qəbul edirlər. Hər kəs bu "yeni adət"dən məmnundur və bu, başqaları, xüsusilə də tələbə valideyni olmağa hazırlaşan ata-analar üçün parlaq nümunədir.

Abituriyentlərin yüksək ballarla arzu etdikləri ixtisas üzrə təhsil almaq şansına sahib olmaları göstərir ki, bəzən olduğu kimi, total savadsızlıqdan gileylənmək haqqımız yoxdur. Uşaqlar gözlərinin nurunu sərf edərək oxuyurlar, savad toplayırlar və universitetlərə daxil olurlar. Heç bir universitet tələbə sarıdan boş qalmır.

Sadəcə, ondan əndişə duymaq olar ki, biz təhsil sferasında dünya standartlarından geri qalmayaq. Universitetlərin boş qalmaması, hətta ildə xarici ölkələrə, xüsusilə də Avropanın ən yaxşı təhsil ocaqlarına oxumağa gedən həmvətənlərimizin artması hələ bizim bu müstəvidə böyük nailiyyətlər əldə etməyimiz demək deyil.

Biz təhsilimizin Yaponiya, Cənubi Koreya, İsrail, Kanada, İsveçrə səviyyəsinə çatması uğrunda mübarizə aparmalıyıq, hədəfimiz o olmalıdır.

Bunu dəfələrlə yazmışıq, bir daha təkrar edək: dünya üzündə o millət xoşbəxt və firavan, azad və təhlükəsiz olacaq ki, onun vətəndaşlarının təhsil səviyyəsi, elmi nailiyyəti başqalarından üstündür. Hətta qaba güc məsələsində də elmi, təhsili üstün millətlər daha böyük uğurlar qazanacaq və öz iradələrini başqalarına diktə edəcəklər.

Adi bir misal. Bu günlərdə yayılan bir xəbərdə deyilirdi ki, Cənubi Koreyadan olan mütəxəssislər Birləşmiş Ərəb Əmirliklərində atom elektrik stansiyası (AES) inşa ediblər, ancaq AES-in istifadəyə verilməsi gələn ilə qalıb. Ona görə ki, bir il əvvəl işə düşməli olan AES-i işlətmək üçün müvafiq ixtisaslı mütəxəssislər yoxdur. Onlar nə vaxt yetişəcək, nə zaman iş bacaracaq, hələ bilinmir. Güman ki, BƏƏ öz AES-ni işlətmək üçün "legioner alim"lər transferi etməli olacaq.

Deməli, yerin təkindən çıxan zəngin karbohidrogen ehtiyatlarını satmaqla milyardlar əldə etmək, onları dəbdəbəyə (ən hündür göydələnlər, ən böyük akvariumlar, ən geniş alış-veriş mərkəzləri tikməyə) sərf etməklə deyil, gün gəlir, xalqın mənafeyi, gələcəyi üçün bir vacib müəssisə işlətmək lazım olur, amma milli mütəxəssis tapılmır.

Yaponiya, Almaniya, Cənubi Koreya, İsrail isə dünyaya mürəkkəb sənaye müəssisələri tikmək, quraşdırmaq və işlətmək üçün hər cür mütəxəssisə malikdir. Nəyə görə? Sırf övladlarına vaxtında lazımlı, məqsədyönlü təhsil verdiklərinə görə.

Turizm və otelçilik ixtisası da lazımlı, gələcəyi olan ixtisasdır, amma nüvə fizikası, kibernetika, təbabət üzrə yüksək ixtisaslı mütəxəssislər yetişdirmək daha vacibdir.

Təbabət demişkən, dünyanın milyarder xeyriyyəçilərinin sərf etdiyi milyardlar hesabına elmi laboratoriyalarda gecə-gündüz çalışan ən yaxşı tibb alimlərinin bir hədəfi var: ağır xəstəliklərin effektiv müalicəsini tapmaq.

Bunu hansı ölkənin alimləri ilk tapsa, dünyanın ən varlı və ən sağlam ölkəsi o olacaq. O ölkənin təhsili də, səhiyyəsi də, iqtisadiyyatı da, turizmi də, bir sözlə, hər şeyi ən yüksək səviyyədə olacaq.

Bu istiqamətdə çalışmaq lazımdır. Güləşmək, döyüşmək, rəqibləri tatami üzərində, rinqdə məğlub etmək yaxşıdır, amma ən yaxşısı onları elm rinqində yenməkdir.

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019



# Ədalətin zəfər çalması

Zamin HACI
zaminhaci@gmail.com

“Haqq nazilər, üzülməz”

*(ata sözü)*

**Bizim vəzifəli şəxslərdən birinin nəvəsi iki il qabaq “Gəlinvaqen” markalı maşını Bakıda yüksək sürətlə idarə edərkən qəza törətmiş, 2 nəfəri öldürmüş, 3 nəfəri ağır yaralamışdı. Ağır yaralılardan ikisi Türkiyə vətəndaşı idi, hələ indiyəcən özlərinə gələ bilməyiblər, xəstə yatırlar. O vaxt nəvə cinayəti törədəndən sonra dabanına tüpürüb qəza yerindən qaçmışdı, bir müddət istədilər pul verib günahı hansısa yetim sürücünün boynuna qoysunlar. Bizdə belə təcrübə tarixən vardır: qəza gələndə varlı adam aradan çıxır, kasıb da onun xilası üçün canını qurban verir. Təxminən bənzər hadisə haqda dahi klassikimiz “Aldanmış kəvakib” adlı əsər yazmışdır. Ancaq bu dəfə başqa sürücü “Sərrac” rolunu oynaya bilmədi, camaat möhkəm səs-küy saldı, nəhayət, hökumət məcbur oldu məmurun nəvəsini türməyə salsın (işi korlayan bir cəhət də var idi ki, “Sərrac” özü nəvə ilə birgə maşında olmuş və qəzada ölmüşdü). Nəticədə nəvəyə 6 il iş vermişdilər. Hərçənd deyirdilər nəvə türmədə bəy kefində yaşayır, yemək-içməyi, əyləncələri yerindədir, hətta arada türmənin həyətində maşın sürüb siyasi məhbus kimi xalqımıza yad ünsürləri basdalayır.**

Nə başınızı ağrıdım, keçən yay məhkəmə uşağın türmədə maddi-mənəvi əziyyət çəkdiyini nəzərə alıb onun həm cəzasını 1 il azaltmış, həm də qalan cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsinə yönləndirmişdi. Bu türmənin qalan türmələrdən fərqi odur ki, orda qalanlar istəsələr axşam evlərinə gedib yolda dəxi 3-4 adamı maşınla vura bilərlər. Doğrudan da bir insanı yaradıcılıq azadlığından məhrum eləmək BMT-nin beynəlxalq insan hüquqları konvensiyasına ziddir. Yoxsa sən bunu tutmusan-tutmusan, cəhənnəmə ki. Barı qabiliyyətinə, həyatda nail olduğu (gəncimizin adı da nailiyyətlə bağlıdır - bu haqda axırda) uğurlara mane olma. Bu da maşınla adam vurmağı bacarır, neyləmək olar.

Uzun sözün qısası, mətin gəncimiz 1 il də məntəqə tipli türmənin yollarına əziyyət çəkdi, əldən düşdü, əsəbdən sol gicgah nahiyyəsində 1,5 tükün yarım mikronluq hissəsi ağardı, yoğun bağırsağında bəzi lazımlı bakteriyalar öldülər, ən əsası isə, müvafiq dövrdə yolların qırağında nə qədər avara piyadalar çoxalmışdır! Təbiət həmişə belə namərd qaydalarla yaşayır. Canavar azalırsa, qoyunlar çoxalmalıdır. Çaqqalı tələyə salarsan, dovşanlar tarlanı basar, sabah yeməyə kələm tapılmaz, əhali qırılar, halbuki, Ermənistan boşalır, biz isə çoxalıb haçansa Qarabağı almağa borcluyuq. Şair demişkən, qoy millətdə ruh yaşasın. (Lənət şeytana, gör haçandır bu qızıl misranı yazmıram. Xalqımız kimi unutqanam. Qan yaddaşımız belə əldən gedir).

Nəhayət, vəziyyətin dözülməz həddə çatdığını hiss edən əlaqədar orqanlar, konkret yazsam, Ali Məhkəmə bugünlərdə təcili yığışıb, nəvəni dərhal, qeyd-şərtsiz azad eləmək hökmü çıxarmışdı. Ənvər Seyidov pensiyada olmasa bu ədalətli qərarı onun qayırdığını zənn edərdim. Lakin görünür idarədə estafet uğurlu əllərdədir. Min şükür.

İndi biz nə etməliyik? Birincisi, nəvənin türmədə qaldığı günlərin, ayların əvəzində millət olaraq toplaşıb ondan üzr istəməliyik, yaxşı olar Anar müəllim AYB-nin iclasını çağırıb orada “Ağ nəvə”, ya da “Beşnəfərlik qəzanın birnəfərlik qurbanı” adlı romanın əsasının qoyulduğunu elan etsin.

İkincisi, həmin məşum qəzada ölən 2 nəfərin qəbrini tapıb onlara cəza kəsməliyik. Misal üçün, qəbrin üstündə maqnitofona “Səni deyirlər” mahnısını yazdırıb daim oxutdurmaq olar, qoy içəridə rahat yata bilməsinlər. O cür gənc insanın ömründən iki ili oğurlayıblar... Allah-allah. Bu müqəddəs Qurban bayramı sizə qənim olsun.

Üçüncüsü, elə hadisə bu gözəl vaxta təsadüf elədiyindən yaxşı olar beş nəfər könüllü yolun qırağına düzülsün, gəncimiz maşını sürüb onları vursun. Keçən dəfə Türkiyə vətəndaşlarının işin içində olması beynəlxalq nüfuzumuzu yüksəltmişdi, bu dəfə bir-iki ərəb, pakistanlı, nə bilim, fars-filan vursa müsəlman aləmində adımızı yenidən canlandırardı. Zarafat deyil, keçən ay Türkiyə televiziyası bu hadisədən video vermişdi. Bəyəm bizi orda hər gün göstərirlər? Azərbaycan həqiqətlərini yayan gənclərimizi qorumalıyıq.

Sonda mən niyə o gəncin adını, babasının vəzifəsini yazmadım, onu da oxuculara açıqlayım: mən özümü o adamların adını çəkməyə layiq bilmədim.

**Ukrayna prezidenti Vladimir Zelenskinin Türkiyəyə ilk rəsmi səfəri yekunlaşıb. Səfər Azərbaycan üçün də önəmli sayıla biləcək bəzi mühüm məqamlarla yadda qalıb. Söhbət Ukrayna və Azərbaycanın ərazi bütövlüyü məsələsində eyni problemlərlə üzləşməsinin yaratdığı situasiya ətrafındakı gəlişmələrdən gedir.**

# Türkiyədən Qarabağ və Krım məsələsində prinsipial mövqe - separatçılığa növbəti zərbə

## Ankaradan postsovet məkanındakı separatizmlə bağlı önəmli mesaj; Türkiyə erməniləri Xankəndindəki oyunları boykot etdi - Paşinyana şok; Ərdoğan Krımda məscidin açılışına gedəcəkmi?..



“Türkiyə Krımın ilhaqının qanuniliyini tanımır və tanımayacaq”. “Yeni Müsavat”ın məlumatına görə, bu sözləri qardaş ölkənin prezidenti Rəcəb Tayyib Ərdoğan Zelenski ilə keçirdiyi birgə mətbuat konfransında deyib.

Türkiyə lideri bir daha bəyan edib ki, “Krım tatarlarının hüquq və maraqlarının, milli özünəməxsusluğunun qorunması və onların öz vətənlərində yaşaması məsələsi daim Türkiyə dövləti üçün prioritet olacaq. ”Biz istəyirik ki, Donbasda konflikt tezliklə başa çatsın. Biz inanırıq ki, bu problem dinc yolla, beynəlxalq hüquq və Ukraynanın ərazi bütövlüyü əsasında həllini tapacaq. Biz Minsk prosesini və Türkiyə diplomatlarının rəhbərlik elədiyi ATƏT-in xüsusi monitorinq missiyasının fəaliyyətini dəstəkləyirik", - deyə Türkiyə lideri əlavə edib.

*****

Qardaş ölkə Krım məsələsində təbii ki, fərqli mövqe tuta bilməzdi - baxmayaraq ki, Türkiyə ilə Rusiya arasında əlaqələr son illər hərbi sfera da daxil, əksər sahələrdə dinamik inkişafdadır. Lakin göründüyü kimi, ikitərəfli münasibətlərdəki dinamika rəsmi Ankaraya postsovet məkanında Rusiyanın əli ilə yaradılmış etnik-ərazi konfliktlərinə yanaşmada Ankaraya haqq və ədalətin, beynəlxalq hüququn yanında durmağa mane olmur. İndi artıq o da aydındır ki, Ərdoğan bu ilin sentyabrında Krımda yeni və böyük məscidin təntənəli açılışında iştirakla bağlı Putinin xahişini yerə salmalı olacaq.

Ankaranın separatçılığa və separatçılara münasibətdə, o cümlədən Dağlıq Qarabağ məsələsində belə prinsipial mövqeyin və verəsəliyə əsaslanan siyasətinin nəticəsidir ki (Ərdoğanın Qarabağ və Krım mövqeyi həm də ölkə müxalifətinin, bütövlükdə dövlətin dəyişməz mövqeydir), Türkiyə erməniləri bugünlərdə Ermənistanın işğal altındakı Azərbaycan ərazilərində təşkil etdikləri və avqustun 5-də açılışı olan “panermәni oyunlarına” qatılmaqdan imtina ediblər. Belə ki, Türkiyə KİV-ləri xəbər verir ki, həmin oyunlara qatılmağa hazırlaşan 300 nəfərlik heyət yarışların İrəvanda deyil, işğal altındakı Dağlıq Qarabağda keçiriləcəyini öyrənən kimi boykot qərarı veriblər və İrəvandakı hotel və bilet rezervasiyalarını ləğv ediblər (Virtualaz.org ).

Qeyd edək ki, 1999-cu ildən etibarən hər dörd ildən bir təşkil olunan “panerməni oyunları” indiyədək İrəvanda keçirilib və Türkiyə erməniləri də həmin yarışlara qatılıb. Lakin bu dəfə oyunların İrəvanda nəzərdə tutulduğu halda Dağlıq Qarabağda keçirilməsi, - bu da şübhəsiz ki, populist baş nazir Nikol Paşinyanın növbəti siyasi hoqqasıdır, - Türkiyə ermənilərі tərəfindən etirazla qarşılanıb. “Şişli” və “Taksimspor” idman klubarından 70 həvəskar idmançı da daxil olmaqla, 300 nəfərdən ibarət olan Türkiyə erməniləri heyəti son anda bu yarışlara qatılmamaq qərarı verib.

**Erməni Olimpiadaları İstanbul Komitəsi başqanı Hayqaram Karasu “Milliyet” qəzetinə bu xüsusda verdiyi açıqlamanda belə deyib:** “Olimpiadanın İrəvan əvəzinə Dağlıq Qarabağda keçirilməsi canımızı sıxdı. 70 idmançı olmaqla 300 nəfərlik heyətlə İrəvanda rezervasiyalarımızı etdirmişdik. Builki açılış mərasimi üçün geyimlərimizi belə hazırlatmışdıq. Ancaq Ermənistan Olimpiya Komitəsinin qərarı bizim mövqeyimizə uyğun gəlmədiyi üçün turnirlərə qatılmamaq qərarı aldıq”.

**Hayqaram Karasu haqlı olaraq qeyd edib ki, tədbir üçün Dağlıq Qarabağın seçilməsi siyasi qərardır. O, hər dəfə İrəvanda keçirilən oyunlara qatılaraq İstanbulu təmsil etdiklərini xatırladıb. Bildirib ki, Türkiyə ilə Azərbaycan arasında diplomatik böhrana yol aça bilən bir bölgədə idman yarışları təşkil etmək artıq idman fəaliyyəti olmaqdan çıxır və siyasi addımdır.** “Bizlər də bu ölkənin vətəndaşlarıyıq və müəyyən cizgilərimiz var. Azərbaycanlı dostlarımızı məyus edən diplomatik problem varsa, biz bu işin içində olmarıq. Türkiyə vətəndaşları olaraq Qarabağa getməyin yanlış olduğunu düşünürük” - o bildirib.

**Öz növbəsində Erməni Olimpiadaları İstanbul Komitəsinin üzvü, “Taksimspor” klubunun başqanı Garo Hamamcıyan deyib ki, onlar boykot qərarını hansısa təzyiq və ya xəbərdarlıq nəticəsində verməyiblər.** “Tamamilə öz seçimimizdir və bu yarışlara qatılmaqdan imtina etdik. Qarabağ məsələsi həssas məsələdir. Olimpiadaların gözəlliyi onun rəsmi keçid mərasimidir. Bizə dedilər ki, rəsmi keçid mərasiminə qatılmayın, amma oyunlarda iştirak edin. Bu da qəbuledilməzdir”, - Hamamcıyan əlavə edib.

*****

Əlavə edək ki, Gürcüstan və İrandan olan erməni vətəndaşlar da Xankəndindəki üzdəniraq tədbirə qatılmayıblar. Daha dəqiqi, öz dövlətlərinin xəbərdarlığını ciddiyə alaraq, işğal altındakı ərazilərə getməkdən imtina ediblər. Bu, şübhəsiz ki, rəsmi İrəvanın “panerməni” oyunları ilə güddüyü məqsədə ciddi zərbədir. Əgər göndərilən dəvətlərə rəğmən, keçirdiyin tədbirə heç bir qonşu dövlət qatılmırsa, bunun günahını gərək özündə axtarasan.

Qardaş Türkiyə başda olmaqla, regionun 3 dövləti bununla bir daha Ermənistan rəhbərliyinə anladıb ki, bölgədə dinc-yanaşı yaşamağın və tərəqqi eləməyin tək yolu qonşularla dostluq və mehribanlıq şəraitində yaşamaqdan keçir. Bundan ötrü birinci növbədə qonşu ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmət tələb olunur - ki, sənin də suverenliyinə hörmət eləsinlər...

❑ Siyasət şöbəsi, “Yeni Müsavat”

**ABŞ Müdafiə Nazirliyi-Pentaqon İraq Şam İslam Dövləti (İŞİD) terror təşkilatının Suriyada "yenidən dirçəlməsi" barədə xəbərdarlıq edib. BBC xəbər verir ki, Pentaqonun Başmüfəttişi tərəfindən ABŞ Konqresi üçün hazırlanan məruzədə Amerika əsgərlərinin Suriyadan çıxması prosesinin başlaması ilə terror təşkilatının ölkədə yenidən fəaliyyətə keçdiyi bildirilir.**

Məruzədə İŞİD-in Suriyadakı paytaxtı hesab olunan Raqqanı itirməsinə baxmayaraq, bu ölkədə və İraqda yerli hakimiyyətin zəifliyindən istifadə etməyə başladığı bildirilib. Həmçinin təşkilatın İraqda təxribatlar törətmək üçün bazasını da gücləndirdiyi qeyd olunub.

ABŞ artıq terrorçuların toplanma mərkəzlərini öyrənməyin və müttəfiqlərinə bu barədə məlumat verməyin də çətinləşdiyini açıqlayıb.



# ABŞ həyəcan təbili çalır: İŞİD "dirilir"...

## Ekspert: "Pentaqonun həyəcan təbili çalmasını təsadüfi saymıram"

Ekspertlərin bu məruzə ilə bağlı mövqeləri birmənalı deyil. Məlumata inananlar da, İŞİD-in "dirilməsi"nin inandırıcı olmadığını dilə gətirənlər də var. Amerikanın o bölgədən hərbi qüvvələrini çıxarmamaq üçün belə bir xəbərdarlıq məruzəsi hazırladığını düşünənlər də az deyil.

**Politoloq Əhəd Məmmədli Pentaqonun belə qənaətə gəlməsini Suriya və İraqda mövqelərini itirməkdən qorxması ilə əlaqələndirir:** "Türkiyənin İraq və Suriyada güclənməsi Pentaqonu çox narahat edir. Ona görə əvvəl "Əl-Qaidə" ilə bağlı məlumat verdilər, guya sən demə, bu təşkilat dirçəlir və Amerika bundan çox narahatdır. Buna bənzər məlumatı indi də İŞİD-lə bağlı verirlər. Bütün bunlar ona görə verilir ki, görünür, Amerika bölgədə zəifləmiş mövqelərini tezliklə qaytarmaq fikrindədir. Türkiyənin Suriyada gözlənilən növbəti antiterror əməliyyatı bunları çox narahat edir. Türkiyənin Suriya daxilinə irəliləməsinin qarşısını almaq istiqamətində ABŞ, İsrail "Əl-Qaidə"ni, İŞİD-i, Hizbullahı belə dirçəldər. Hazırda məsələ qardaş Türkiyənin qarşısını almaqdır, qalanı təfərrüatdır. Nə "Əl-Qaidə"nin, nə də İŞİD-in dirçəlməsinin rüşeymlərini görmürəm. Bu iki təşkilat da məhvə doğru getmək üzrə idi. Sadəcə, sahibləri onları dirçəltmək istəyirlər. "Əl-Qaidə", İŞİD kimi təşkilatlar qara işlər görmək üçün qurulublar. Və bu qara işləri təmizləmək də guya Amerikanın məsuliyyət borcudur. İlk öncə dava ideoloji davadır və bu davada dünya demokratiyası İŞİD kimi maşalardan məharətlə istifadə edir".

**Politoloq onu da qeyd etdi ki, ABŞ Suriyadan çıxmamaq üçün hər bir varianta əl atacaq:** "ABŞ ehtiyac yaransa, "Əl-Qaidə"ni, İŞİD-i, Qırmızı Briqadaları da yenidən dirçəldəcək. Tarix boyu bu cür terror təşkilatları həmişə böyük dövlətlərin məqsədlərinə çatmaq üçün əlində maşa olublar. Məsələn, PKK terror təşkilatı Türkiyəyə qarşı əvvəl SSRİ-nin, indi də ABŞ, İsrail, Almaniyanın əlində maşadır. Hər bir tanınan terror qruplaşmasının daxilinə müxtəlif ölkələrin xüsusi xidmət orqanlarının üzvləri yerləşdirilir. Elə vəziyyət yaranır ki, terror qruplaşmalarının daxilində müxtəlif dövlətlərin nüfuz davası gedir. Terror qruplaşmaları da balaca ölkə kimidirlər. Terror təşkilatlarında da üçüncü dünya ölkələrində olduğu kimi daha böyük dövlətlərin nüfuz davası gedir. Misal üçün PKK-nı göstərə bilərik. Bu terror təşkilatında Rusiya, ABŞ, İsrail, Almaniya, Britaniya, İran, Fransa, hətta İtaliyanın agentura şəbəkəsi var. Həmçinin Türkiyənin xüsusi xidmət orqanlarının iştirakı da PKK-ya sızdırılıb. Bütün bunlar real dünyamızda baş verən təbii proseslərdir. Hər mövqe uğrunda böyük güclər, dövlətlərin gizli və açıq savaşı gedir. Nəinki İraq, Amerika harada istəsə, İŞİD orada terror aktları həyata keçirə bilər. Bütün bunlar Amerika, İsrailin istəyinə bağlıdır. Yuxarıda qeyd etdiyim kimi, İŞİD etibarlı əllərdə yalnız maşadır. Səddam Hüseyn devrildəndən sonra İraq güclü dövlət mahiyyətini itirib oyuncaq ölkəyə çevrilib. Bütün bunlar Amerikanın sayəsində baş verdi. İndi Vaşinqtonun durub İraq yerli hakimiyyətinin zəifliyindən danışması ironiyadan başqa bir şey deyil. Zatən yerli hakimiyyət güclü olsaydı, nəinki İŞİD, ABŞ-ın İraqda heç bir işi olmayacaqdı. Görünür, ABŞ Yaxın Şərqdə zəifləmiş, itirilmiş mövqelərini yenidən gücləndirmək, qaytarmaq üçün dövriyyəyə girmək istəyir. Pentaqonun əvvəl artıq unudulmaqda olan "Əl-Qaidə", sonra bitməkdə olan İŞİD-in adını çəkib guya həyəcan təbili çalmasını təsadüfi saymıram. Bütün bunlar onu deməyə əsas verir ki, Suriya və İraqda şiddət daha da qızışa bilər. Bu da bəhanə kimi Amerikanın həmin ölkələrdə siyasi-iqtisadi-hərbi mövcudluğunu daha da gücləndirə bilər. İraqda deyə bilmərəm, Suriyada Amerikanın daha da güclənib üstünlüyü ələ alması artıq mümkünsüz hesab edirəm. Türkiyə-İran-Rusiya üçlüyü Amerikaya Suriyada revanş almağa çətin ki, imkan versin. Amerika Suriyada revanşı Türkiyə və ya İranı özünə tərəf çəkməklə ala bilər. Daha doğrusu, Türkiyəni özünə tərəf çəkməklə Suriyada ABŞ irəliləyə bilər. Buna görə də ABŞ gərək PKK-nı Suriya və İraqda qurban versin. ABŞ bir əlində iki qarpız tutmaqla hərəkət etmək istəyir. Daha qəbul etmək istəmir ki, o vaxtkı gücündə deyil. İraqda ən güclü İranla Amerikadır. İraq İranla ABŞ-ın savaş, haqq-hesab çürütmək meydanına çevrilə bilər. Zatən İraqda mütəmadi olaraq İrana qarşı üsyanlar qalxır. Bu yaxınlarda Cənubi İraqın paytaxtı Bəsrə şəhərində İran konsulluğunun yandırılmasını xatırlaya bilərik. İraqı işğal edən Amerika, bu ölkəyə sahiblənən isə İran oldu. İraqda Amerika tərəfindən İŞİD, İran tərəfindən isə Haşdi-Şabi kimi terror təşkilatlarının lokal səviyyədə müharibəsinin şahidi olsaq təəccüblənmərəm".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli Pentaqonun məruzəsini inandırıcı saymır:** "ABŞ-a bölgədə qalmaq lazımdır. Amma ABŞ-dan İŞİD və Suriya ilə bağlı səslənən bəyanatlar ciddi deyil. Birincisi, ona görə ki, İŞİD özlərinin layihəsi idi. Rolunu oynadı və ABŞ bölgədədir. İkincisi, bölgədə İran və Rusiyanın "qızıl üstündə" - neft qurşağının üstündə yatdığı, dünyanın ən vacib geostrateji məkanında olduğu bir vaxtda ABŞ hara gedə bilər ki? İŞİD-lə bağlı ilk mərhələ başa çatdı, bölgələr təsir altına düşdü, amma hesablaşmalar bitmədi. Çünki Suriyada hakimiyyətdə Əsəd qaldı, Rusiya, İran gücləndi, PKK dövlət qura bilmədi və s. Bu baxımdan İŞİD-in ikinci zühuruna ehtiyac varsa, qısa müddətdə onu da görəcəyik. Düşünürəm ki, ABŞ bölgədə qalacaq, özü də İŞİD-i gücləndirərək. Çünki İŞİD bəhanədir, Suriyada dünyanın bölünməsini bitirə bilmədilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

## İŞİD-ə 500 min dollar yardım göndərənlərin məhkəməsindən yeni xəbərlər

### İttiham olunanlardan biri məhkəməyə oyuncaqla gəldi, qəribə hərəkətlər etdi...

**Terrorçuluğu maliyyələşdirməkdə təqsirləndirilən şəxslər hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində terrorçuluğu maliyyələşdirməkdə təqsirləndirilən Ağayev İlqar Ərşad oğlu, İbrahimov Sahil Fərhad oğlu, Məmmədov Namiq Natiq oğlunun cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim Zeynal Ağayevin sədrliyi ilə məhkəmənin növbəti dəfə hazırlıq iclası keçirilib.

Məhkəmədə məlum olub ki, təqsirləndirilənlərdən Sahil İbrahimov və Namiq Məmmədovun vəkili Janna Bağırova cinayət işi materialları ilə tanış olmaq üçün vaxt istəyir. Hakim isə bildirib ki, hər iki şəxsin ifadələri arasında ziddiyyətlər var. Vəkil bildirib ki, işlə tanış olan zaman ziddiyyəti aşkar edərsə, onlardan biri ilə müqavilə bağlayacaq.

Məhkəmədə diqqət çəkən məqam təqsirləndirilənlərdən İlqar Ağayevin davranışları olub. Onun anlaqsız olması haqda ötən məhkəmədə vəkili tərəfindən məlumat verilmişdi. Avqustun 9-da baş tutan məhkəmə iclasında məlum olub ki, İlqar Ağayev hazırda müalicə müəssisəsində saxlanılır. O, məhkəmə zalına gətirilən zaman əlləri qandallı olub. İlqar məhkəmə prosesinin gedişatında əlində olan narıncı rəngli topa bənzər oyuncaqla oynayıb. O, konvoy əməkdaşlarına oyuncağının saatının işləmədiyini deyib və kömək istəyib. O deyib ki, saatı düzəltdirmək lazımdır. "Bu məndə çoxdan var. İndi işləmir. Heç cür mümkün deyil ki, düzəldək?" - deyə İlqar konvoy əməkdaşlarına sual edib.

Məhkəmə prosesi boyunca İlqar gözünü oyuncağından çəkməyib, hətta hakimlər zala gələndə belə ayağa qalxmayıb.

Məhkəmənin hazırlıq iclası təxirə salınıb.

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) həbs edilən şəxslər barədə məlumat yayıb.

Məlumatda bildirilir ki, terrorçuluğa qarşı mübarizə istiqamətində davam edən kompleks araşdırmalar zamanı Birləşmiş Millətlər Təşkilatı tərəfindən terror təşkilatı kimi tanınmış dini ekstremist cinayətkar birliyin tərkibində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrdə iştirak edərək terror aktları törədən şəxslərin gizli maliyyələşdirilməsi təsbit edilib.

Onlara qarşı Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.2 (cinayətkar birlikdə iştirak etmə), 283-1.3 (Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrdə iştirak etmə) maddələri ilə ittiham irəli sürülüb.

Məlumata görə, Ağayev İlqar Ərşad oğlu, İbrahimov Sahil Fərhad oğlu, Məmmədov Namiq Natiq oğlu və digərləri 2017-ci ilin oktyabr ayından etibarən Suriya ərazisində silahlı münaqişələr aparan terror təşkilatı üzvlərinin və onların cinayətkar fəaliyyətlərinin təmin edilməsi məqsədilə ayrı-ayrı ölkələrdəki terror təşkilatının üzvləri tərəfindən göndərilən pul vəsaitlərinin, habelə həmin silahlı münaqişələrdə iştirak edənlərin yaxınları ilə əlaqəyə girib aldıqları pul vəsaitlərinin müntəzəm olaraq, ümumilikdə 500 000 ABŞ dollarından çox pulun müxtəlif yollarla təşkilatın Suriya ərazisində fəaliyyət göstərən üzvlərinə göndərilməsini və çatdırılmasını təmin ediblər.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019

# Övladları jurnalistləri sevindirdi-qəbul olduqları ali məktəblərin siyahısı

## Onlardan bir qisminin övladları xaricdə təhsil alacaq, digər qismi isə ölkənin nüfuzlu ali təhsil müəssisələrində seçdikləri ixtisas üzrə oxuyacaqlar

**Dövlət İmtahan Mərkəzi (DİM) 2019/2020-ci tədris ili üçün ali təhsil müəssisələrinə qəbul olunmuş abituriyentlərin nəticələrini elan edib. Tələbə adı qazanan şəxslər 2019-cu il avqustun 15-dən 27-dək sənədlərini daxil olduqları təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər.**



Dövlət İmtahan Mərkəzinin yaydığı məlumata görə, ali təhsil müəssisələrinin müsabiqəsində 58258 nəfər iştirak edib. Onlardan 42062 nəfəri (o cümlədən 3542 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 17820 nəfər (o cümlədən 586 subbakalavr) dövlət sifarişi əsasında, 24242 (o cümlədən 2956 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

Ötən illərdə olduğu kimi bu il də ictimaiyyətdə tanınan xeyli şəxsin, jurnalistin övladı tələbə adını qazanıb. Onlardan bir qisminin övladları xaricdə təhsil alacaq, digər qismi isə ölkənin nüfuzlu ali təhsil müəssisələrində seçdikləri ixtisas üzrə oxuyacaqlar.

"Yeni Müsavat" olaraq məşhurların övladlarının təhsil alacaqları universitetləri təqdim edirik:

Müstəqil jurnalist Aygün Muradxanlının qızı Humay ali təhsilini Türkiyədə alacaq. O, İstanbul Universitetinin Xalqla İlişkilər fakültəsinə qəbul olub.

"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallının övladları da Türkiyə universitetlərinə qəbul olublar. Onun böyük qızı Selcan İstanbul Universitetinin ictimaiyyətlə əlaqələr fakültəsinə qəbul olunub, bacısı Banu isə İstanbul Universitetində tibb fakültəsini qazanıb.

Xarici ölkə universitetinin tələbəsi adını qazananlar arasında "Yeni Müsavat" qəzetinin baş redaktorunun 1-ci müavini Azər Ayxanın qızı Ayan Abbaslı da var. Ayan ali təhsilini Çexiyanın paytaxtı Praqa şəhərində alacaq. O, Praqada yerləşən Anqlo-Amerikan Universitetinin Jurnalistika və əlaqələr fakültəsinə daxil olub. Ayan Abbaslı IELTS beynəlxalq imtahan sistemi üzrə 7 bal toplayaraq yüksək nəticə göstərən azərbaycanlı gənclərdəndir. Xatırladaq ki, Azər Ayxanın daha bir övladı - oğlu Ayxan Abbaslı da 2017-ci ildən Praqada təhsil alır. Ayxan Abbaslı Çarlz Universitetinin Maliyyə və iqtisadiyyat fakültəsinin tələbəsidir.

Jurnalist Qadir İbrahimlinin qızı Arzu İbrahimli Bursanın Uludağ Universitetində sosiologiya üzrə təhsil alacaq.

Real TV-nin əməkdaşı Ləman Ələşrəfqızı da bugünlərdə sevincini həmkarları ilə bölüşməkdədir. Jurnalistin oğlu Rəsul İsmayılov Türkiyədəki bir neçə universitetin tələbəsi adını qazanıb. Bunların arasında Bülent Ecevit Universiteti, 19 Mayıs Universiteti kimi ali təhsil ocaqları var. Jurnalistin dediyindən belə məlum olur ki, onların seçimi 19 Mayıs Universiteti olacaq.

"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı da oğlunun Türkiyədə təhsil almaq imkanı qazanmasına sevinir. Baş redaktorun ən kiçik övladı Abduləzim 19 Mayıs Universitetinin tibb fakültəsini qazanıb.

"Yeni Azərbaycan" qəzetinin redaktoru Nadir İsmayılovun (Azəri) qızı - Bakı Atatürk Liseyinin məzunu Şəmsiyyə İsmayıllı Pamukkale, Ərziyəs, İstanbul universitetlərinin tələbəsi adını qazanıb. İsmayılovlar ailəsi qızlarının ali təhsili üçün həmin universitetlərdən birini seçiblər. Belə ki, Şəmsiyyə Dənizli şəhərindəki Pamukkale Universitetində Türkiyə dövlətinin hesabına - ödənişsiz ali təhsil alacaq.

"Kaspi" qəzetinin əməkdaşı Azər Nuriyevin də oğlu Türkiyənin Uludağ Universitetinin tələbəsi adını qazanıb.

BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycan üzrə əməkdaşı Rəşad Hüseynov və xanımı - BDU-nun Jurnalistika fakültəsinin müəllimi, filologoya üzrə fəlsəfə doktoru Xatirə Hüseynova qızlarını xaricə təhsil almağa göndərəcək növbəti jurnalist cütlüyüdür. Jurnalist ailəsinin qız övladı Bikəxanım Avstriya, Azərbaycan, Almaniya, Çexiya, Hollandiya və Macarıstan universitetlərinə verdiyi qəbul imtahanlarında uğur qazansa da, yekun seçim birinci ölkə olub.













Ölkənin nüfuzlu ali məktəblərində tələbə adını qazanan jurnalist övladlarına gəlincə isə qeyd edək ki, jurnalist Azər Rəşidoğlunun oğlu Rəşid Bakı Dövlət Universitetində dövlət sifarişi əsasında Regionşünaslıq (Amerika üzrə əyani) oxuyacaq.

Jurnalistlər Fərəh Sabirqızı və Məğrur Əliyev də bu gündən tələbə valideynləri sayılırlar. Onların qızı Fidan Əliyeva Bakı Dövlət Universitetində Jurnalistika ixtisasında ingilis dilində təhsil alacaq.

FED.az biznes portalının redaktoru Əli Əhmədovun oğlu Cavidan da tələbələr sırasına qoşulub. Cavidan ADA Universitetində biznesin idarəedilməsi ixtisası üzrə təhsil alacaq.

"Region plus" jurnalının baş redaktoru Namiq Mayılovun qızı Fidan Mayılova Azərbaycan İqtisad Universitetində biznesin idarəedilməsi (türk dilində) ixtisası üzrə təhsil alacaq.

Əmlak Məsələləri Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Qulu Xəlilov da sevincli anlar yaşayır. Onun oğlu Oqtay Azərbaycan İqtisad Universitetində Maliyyə və kredit ixtisası üzrə oxuyacaq.

Aznews.az saytının baş redaktoru Taleh Şahsuvarovun qızı Türkay Şahsuvarlı Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində ingilis dilində olan iqtisadiyyat ixtisasına yiyələnəcək.

Bakı Avrasiya Universitetinin mətbuat katibi Şəfayət Avılbəylinin oğlu Nihat Əliyev builki qəbul imtahanlarında 420 bal toplayıb. O, Cəmşid Naxçıvanski adına Hərbi Məktəbə qəbul olub.

Unikal.org saytının əməkdaşı Hüseyn İsgəndərovun qızı Ləman İsgəndərova da tələbə olanlar sırasındadır. O Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinə qəbul olub. Müstəqil jurnalistlər Məmməd Süleymanov və Kifayət Haqverdiyeva cütlüyü də oğlanları Süleymanın uğuruna sevinib. Jurnalist övladı Xəzər Universitetinin Regionşünaslıq fakültəsinin tələbəsi adını qazanıb.

**Həmkarlarımızı təbrik edirik...**

❑ Əli RAİS,
"Yeni Müsavat"

## Aprel şəhidinin oğlu da tələbə adı qazandı





**Ali məktəb tələbəsi olanlar arasında 2016-cı ilin aprel ayında şəhid olmuş kəşfiyyatçı polkovnik Sənan Axundovun oğlu Tahir Axundov da var.**

Modern.az-ın məlumatına görə, Tahir Axundov Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsinə müalicə işi ixtisasına (dövlət sifarişi) qəbul olunub.

Bu ilin mart ayında Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban xanım Əliyeva şəhidin ailəsinə Heydər Əliyev Fondu adından mənzil də hədiyyə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019



# Qarabağ uçun Ankara-Moskva tandemi

## Ən yaxşı təzə - unudulmuş köhnədir; **müharibədən qaçmağın optimal yolu:** Türkiyə-Rusiya ortaq "Yol xəritəsi"; politoloq deyir ki...

**Qarabağ danışıqları rəsmi İrəvanın təxribatçı mövqeyi ucbatından bir az da dalana girdi. Ermənistanın baş naziri Nikol Paşinyanın sülh prosesi ilə bir araya sığmayan və savaşı yaxınlaşdıran son bəyanatları iki ölkə arasında ən aşağı səviyyəli rəsmi danışıqları belə, faktiki surətdə mənasız edib. Müharibə ehtimalını kritik nöqtəyə çatdırıb.**

Əslində Azərbaycan həmin bəyanatlardan sonra işğal altındakı torpaqların böyük bir qismini, ən azından Dağlıq Qarabağ ətrafında bir neçə rayonu antiterror əməliyyatı ilə azad eləmək üçün əlavə və olduqca ciddi əsas əldə edib. Bir çox siyasi və hərbi analitiklər də bu yöndə Bakı üçün mühüm fürsət yarandığı qənaətindədirlər.

Ancaq onların hamısı bir məqamı xüsusi qeyd edirlər - Rusiya faktoru. Çünki bu faktor münaqişənin istər hərbi, istərsə də dinc yolla həllində hələ ki, aparıcı faktor, daha dəqiqi, əngəl olaraq qalır. Bu xüsusda əksər təhlilçilərə görə, Bakı hərəkətə keçmək üçün Moskvanın mövqeyini öyrənməli, yaxud antiterror əməliyyatını ildırım sürəti ilə, qısa zamanda, məsələn, uzağı 1 həftəyə yekunlaşdırıb öz minimum hədəfinə çatmağı bacarmalıdır.

Hesab edilir ki, müharibənin uzanması halında Rusiya ona qarışa bilər. Elə digər mühüm vasitəçi dövlət olan ABŞ, bütövlükdə Qərb də yəqin ki, o halda səssiz qalmayacaq. Hərçənd Azərbaycan beynəlxalq hüququn prinsiplərinə zidd hərəkət eləməyə hazırlaşmır və yalnız öz ərazi bütövlüyü çərçivəsində əməliyyat aparacaq. Bununla belə, Bakı müharibə variantında dünyanın "yazılmamış qanunları"nı, öncəliklə iki əsas supergücün - Rusiya və ABŞ-ın ovqatını da nəzərə almaq zorundadır.




*****

Yaranmış vəziyyətdə nə qədər paradoksal olsa da Rusiya amilinin rolu artmış kimi görünür. O anlamda ki, əgər Moskva özünün də bölgədəki maraqlarına ciddi zərbə vurulmasını istəmirsə, o zaman nəhayət ki, hərəkətə keçməli, münaqişənin dinc həllinə çoxdan gözlənilən töhfəni verməlidir. Bunun üçün onun əlində zəruri olan bütün rıçaqlar var. Hamı bilir ki, İrəvan Dağlıq Qarabağ məsələsində əsas söz sahibi deyil, Moskvanın ağzına baxır. Üstəgəl, Kremlin Bakı ilə münasibətləri də yaxşıdır.

Təəssüf ki, Rusiya hələ ki Qarabağ hayında deyil, daha çox Yaxın Şərqlə, Suriya ilə əlləşir. Yeri gəlmişkən, bir sıra ekspertlər Suriya üzrə Moskva-Ankara əməkdaşlığı təcrübəsinin Qarabağ probleminin nə vaxtsa yoluna qoyulmasında pozitiv rol oynaya biləcəyini istisna etmirlər. O sırada politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, Suriya ilə bağlı Ankara-Moskva tandemi Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında da mühüm rol oynaya bilər.

**Onun fikrincə, bölgədə Rusiya ilə əməkdaşlıq edən Türkiyə Suriya müharibəsində sülhə və öz təhlükəsizliyini təmin etməyə yaxındır.** "Bu baxımdan Ankara-Moskva tandemi Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında da mühüm rol oynaya bilər. Qənaətimə görə, Ərdoğan Suriya məsələsindən sonra Qarabağ münaqişəsini aktiv formada gündəmdə saxlasa, Moskva-Ankara danışıqları Qarabağ məsələsində müəyyən razılaşmaya gələ bilər", - deyə o qeyd edib.

*****

Yada salaq ki, Dağlıq Qarabağ məsələsində iki ölkənin əməkdaşlıq təcrübəsi yox deyil. Ötən əsrin 90-cı illərində, Kəlbəcərin işğalından sonra Türkiyə-Rusiya-ABŞ üçlüyü formatı yaranmışdı və bu format çərçivəsində hətta Kəlbəcərin erməni işğalçılarından təmizlənməsi üçün ilkin qrafik razılaşdırılmışdı. Gəncə hadisələri həmin anlaşmanı sıfırladı.

Necə deyərlər, ən yaxşı təzə - unudulmuş köhnədir. İstisna deyil ki, hansısa mərhələdə Rusiya doğrudan da ələqələrin yüksək səviyyədə olduğu Türkiyə ilə birgə Qarabağa dair "Yol xəritəsi" üzərində işləsin. Həm də o səbəbə ki, status-kvonun, işğal rejiminin uzanması Kremlin də perspektiv maraqlarına cavab vermir. Ən azı, o baxımdan ki, müharibə yüksək səviyyədə olan Ankara-Moskva və Bakı-Moskva strateji tərəfdaşlığını ciddi imtahan qarşısında qoyacaq.

Moskvada, nəhayət, anlamalıdırlar ki, həlli uzanan Qarabağ konflikti regiondakı uzunmüddətli sabitliklə yanaşı, Rusiyanın öz maraqları altına qoyulmuş "gec partlayan" minadır. Demək, onu zərərsizləşdirmək ilk növbədə Kremlin marağında olmalıdır - xüsusən də bu imkan 100 faizlikdirsə...

*****

Maraqlıdır ki, bu ilin oktyabrında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana, Rusiya prezidenti Vladimir Putinin isə Ermənistana səfəri nəzərdə tutulur. Ola bilsin, səfərlərin təxminən eyni vaxta düşməsi təsadüfdür. Ancaq yaxşı olar ki, hər iki səfər həm də Dağlıq Qarabağ münaqişəsinin dinc həll perspektivi baxımından əhəmiyyətli və yadda qalan olsun.

Hər halda, Moskvanın İrəvana, Ankaranın isə Bakıya təsir imkanları bəllidir. Oktyabra kimi Suriya məsələsində də iki dövlət mühüm anlaşmaya nail olarsa, o zaman Qarabağ üçün fürsət qapısının açıla biləcəyinə ümidlənmək olar. Bu, təbii ki, bir ehtimaldır. Ancaq deyirlər, siyasətdə heç vaxt "heç vaxt" demək olmaz...



# Ermənilər Ağdam torpaqlarını suvarmaq üçün kanal çəkirlər

**Ermənilər işğal etdikləri Azərbaycan ərazilərində daha bir irimiqyaslı infrastruktur layihəsi başladıblar ( Virtualaz.org). Erməni mənbələri xəbər verir ki, bu dəfə işğalçılar Matagis kəndini Ağdərə şəhəri ilə birləşdirən su kanalı çəkirlər. Məqsəd həm də işğal edilmiş Ağdam rayonunun əkin sahələrini suvarmaqdır.**

Layihə barədə qondarma "dqr"in keçmiş "baş naziri", hazırda "Sərsəng SES"-in rəhbəri olan Araik Arutyunyan məlumat verib. O deyib ki, layihə Sərsəng SES-in davamı olacaq. 4 yeni su elektrik stansiyası və 2 kanal tikiləcək, ardınca beşinci SES inşa ediləcək və nəticədə 200 milyon kilovatt saat elektrik enerjisi hasil olunacaq. Habelə 10 min hektar əkin sahəsi suvarılacaq. Layihəyə 100 milyon dollar investisiya qoyulacaq, bu Qarabağda son illərdə həyata keçirilən ən iri layihələrdən biridir. Arutyunyan deyib ki, su kanalının tikintisi sayəsində Ağdərə, Ağdam, Xocavənd rayonlarında indiyə qədər susuzluqdan əkilib-becərilməyən əkin sahələrinin suvarılması problemi həll ediləcək.

Qeyd edək ki, indiyə qədər ermənilər onsuz da Sərsəng su anbarından Azərbaycanın nəzarətində olan ərazilərə yaz-yay aylarında suyun ötürülməsinə məhdudiyyətlər yaradırdılar, payız-qış aylarında isə artıq suyu anbardan buraxmaqla Tərtər ərazisində subasmaya səbəb olurdular. Azərbaycan dəfələrlə ATƏT və digər beynəlxalq təşkilatlar qarşısında Sərsəng su anbarı ilə bağlı məsələni qaldırıb. İndi isə belə görünür ki, yeni su kanalının çəkilməsi ilə işğalçılar Azərbaycanın nəzarətində olan ərazilərə gələn suyu daha çox məhdudlaşdıracaqlar. Həmin kanal o cümlədən işğal altındakı Ağdamın əkin sahələrini suvarmaya yönəldiləcək və beləliklə də Ağdamda məskunlaşdırma üçün daha geniş imkan yaranacaq.

Ermənistan bugünlərdə Qarabağa Arazboyu əraziləri birləşdirəcək yeni Qafan-Xocavənd yolunun çəkilişinə başlayacağını elan edib. Bu, Qarabağı Ermənistana birləşdirən üçüncü yol olacaq və Arazboyu işğal edilmiş ərazilərin məskunlaşdırılmasına hesablanıb.

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019

# Yağış bitkiçiliyə zərər, heyvandarlığa xeyir verir

**Umayra Tağıyeva:** "Soyuq hava kütlələri Rusiya ərazisindən gəlib"
**Nicat Nəsirli:** "Bağlarda təhlükəli xəstəliklər artır"

**Azərbaycanda bir həftədir müşahidə olunan qeyri-sabit hava şəraitinin səbəbi Rusiya ərazisindən keçən antisiklondur. Bu barədə "Yeni Müsavat"a Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin direktoru Umayra Tağıyeva məlumat verib. Onun sözlərinə görə, bu ilin avqust ayı Azərbaycanda anomal hava şəraiti ilə keçir: "Bu, yalnız bizdə belə deyil. Şimal qonşumuz olan Rusiyada iyulun sonundan başlayaraq Arktikadan soyuq hava kütlələrinin daxil olması nəticəsində havanın temperaturu hazırda şimal enliklərdə sentyabr ayının temperaturuna yaxındır - norma göstəricilərindən 7-8 dərəcə aşağıdır. Vaxtaşırı olaraq bu prosesin təsiri Azərbaycanda da özünü göstərir. Soyuq atmosfer cəbhələri Qafqaz ərazisindən keçir: bəzi günlərdə güclü küləklər, bəzi günlərdə indiki kimi, güclü yağışlar müşahidə olunur".**

Departament rəhbərinin sözlərinə görə, avqustun 10-dan etibarən Azərbaycan ərazisində hava şəraiti sabitləşəcək: "Dünən və bugünkü yağıntılı hava şəraiti bizim üçün gözlənilən idi, bu barədə əvvəlcədən də müvafiq xəbərdarlıq yaymışdıq. Lakin artıq bulud sistemi ölkəmizin ərazisini tərk etməkdədir, yağıntılar demək olar ki, tamamilə kəsilib. Düşən yağıntının miqdarı Abşeron yarımadasında 3-6 mm olub. Daha dəqiq desək, Zabrat stansiyası 6 mm verib ki, bu da aylıq normanın 98 faizini təşkil edir. Bakıda yağıntı 4 mm olub - yarım aylıq normaya yaxın, Maştağada 4 mm - aylıq normanın 52 faizi, Binədə 3 mm - aylıq normanın 49 faizi həcmində yağıntı düşüb. Yəni qısa müddət ərzində yarım aylıq və aylıq norma həcmində yağıntı düşüb. Güclü yağışlar yalnız Bakı və Abşeron yarımadasını əhatə edib, rayonlarda əsasən zəif və mülayim yağıntılar qeydə alınıb. Hazırda havanın temperaturu çoxillik norma göztəricilərindən 2-4,3 dərəcə aşağıdır".

U.Tağıyeva bildirir ki, avqustun 10-da Bakı və Abşeron yarımadasında hava sabitləşəcək, avqust ayı üçün xarakterik olan isti hava - 34-35 dərəcə - müşahidə olunacaq, cənub şərq küləyi əsəcək. Amma avqustun 11-də yenidən güclü şimal küləyi gözlənilir, Bakıda və Abşeron yarımadasında, respublikanın bəzi rayonlarında küləyin sürəti 15-20, arabir 23-28, günorta saatlarında yarımadanın bəzi ərazilərində 30-35 metr\saniyəyədək güclənəcək. Biz bu barədə müvafiq xəbərdarlıqları aidiyyəti qurumlara göndərmişik. Külək uzunmüddətli olmayıb, avqustun 12-si səhərə yaxın səngiyəcək. 12-13-də avqust ayı üçün xarakterik olan mülayim-isti hava şəraiti olacağı gözlənilir".

**Azərbaycan Milli Elmlər Akademiyasının Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru Ramiz Məmmədov hesab edir ki, Azərbaycanda avqust ayı üçün belə havanın müşahidə olunması iqlim dəyişikliyinin nəticəsidir. İnstitut direktorunun sözlərinə görə, regionda küləklərin sürəti dəyişir:** "Bu, böyük bir siqnaldır. Çünki iqlim dəyişmələri hər şeydə təzad yaradır. Bu iqlim dəyişikliyi kənd təsərrüfatına, insanların sağlamlığına mənfi təsir göstərə bilər. Ona görə də iqlim dəyişikliyinə, belə hallara hazırlıqlı olmaq və adaptasiya olunmaq lazımdır".





**BMT-nin hesabatında fəsil anlayışının artıq yaddan çıxacağı əksini tapıb:** "Yeni yaz, payız, qış fəsilləri anlayışı olmayacaq. Məsələn, yay aylarında 40 dərəcə isti ola, 5 gündən sonra qar da yağa bilər. Anoloji hadisə 2015-ci ildə Azərbaycanda da qeydə alındı. Yayda Qubada qar yağmışdı. Bütün bu təzadlar iqlim dəyişikliyinin nəticəsidir".

**R.Məmmədov deyir ki, iqlim dəyişikliyi insanın fəaliyyətinin, ətraf mühitə təsirinin nəticəsidir:** "İlk növbədə ABŞ, Çin, Hindistan kimi ölkələr atmosferə atılan karbon qazının miqdarını azaltmalıdırlar. Ancaq təəssüf ki, bu dövlətlər karbon qazının səviyyəsinin azaldılmasına maraq göstərmirlər. Çünki bu, iqtisadiyyat üçün böyük maliyyə vəsaiti tələb edir. Buna görə də Donald Tramp hakimiyyətə gəldikdən sonra ABŞ atmosferə atılan karbon qazının azaldılmasını nəzərdə tutan Paris sazişindən çıxdı. Nəzərə almalıyıq ki, dünyada istehsalın 37 faizi məhz ABŞ-da cəmləşib. Əgər böyük dövlətlər maraq göstərmirsə, hansı nəticəyə nail ola bilərik? Nəticədə də belə ekstremal halların həm diapazonu genişlənəcək, həm də təkrarlanma sayı artacaq".

**İqlim dəyişikliyinin yaratdığı fəsadlar - vaxtsız yağıntılar bütün dünyada olduğu kimi, Azərbaycanda da aqrar sektor üçün böyük təhdidlər formalaşdırır. Kənd təsərrüfatı üzrə ekspert Nicat Nəsirlinin sözlərinə görə, son üç gündə havaların kəskin dəyişməsi kənd təsərrüfatı bitkiləri üçün müxtəlif risk amilləri yaradır:** "Hazırda müşahidə olunan hava dəyişmələri bizim bölgəmiz üçün xarakterik deyil, belə görünür ki, illər üzrə bitkilər üçün stress amilləri daha da güclənməkdədir".

**Belə hava kənd təsərrüfatının ayrı-ayrı sahələrində problemlərə yol açır:** "Meyvəçilikdə - mövsümün bu çağında yağıntıların düşməsi nəticəsində havada nəmlik normasının artması bağlarda təhlükəli xəstəlik olan "dəmgil"in aktivləşməsinə səbəb olur. Bağban dəmgilə qarşı yalnız kimyəvi mübarizə tədbiri aparmalıdır ki, bu da qulluq işlərinin artması və məhsula çəkilən xərclərin yüksəlməsi ilə müşahidə olunur. Bundan əlavə, nəm havalar mövsümün əsas zərərvericiləri olan "şərq meyvəyeyəni", "şərq alma yeyəni" və Kaliforniya yastıcasının aktiv fazasıdır, onlara qarşı da ayrıca mübarizə aparılmalıdır".

**Qəfil soyuqlaşma Azərbaycanda prioritet sahələrdən biri olan üzümçülüyə də zərər vurur:** "Temperaturun qəflətən düşməsi üzüm tənəklərində su və metobolizm balansını pozur, məhsulun keyfiyyət göstəricilərinə-şəkərlilik və turşuluq göstəricilərinə mənfi təsir göstərir. Yağıntıların baş verməsi üzümçülükdə təhlükəli xəstəlik olan "boz çürümə" xəstəliyinin yayılmasına münbit şərait yaradır. Suvarılmayan sahələrdə, dəmyə əkinlərində yağış yağması nəticəsində giləllərdə partlam əmələ gəlir ki, nəticədə məhsulun əmtəə görünüşündə eybəcərlik baş verir, fermerə iqtisadi ziyan dəyir. Bu cür qeyri-sabit iqlim amillərinin baş verməsi meyvədə yetişmə dinamikasının pozulması ilə müşayiət oluna bilər. Çünki meyvədə şəkər toplama üçün temperatur sabit olmalı, gecə-gündüz temperaturu arasında ampiluitut normal həddə tərəddüd etməlidir. Yəni gündüzlər kəskin isti, axşamlar isə xeyli soyuq olması, o cümlədən gündüzlə gecə temperaturu arasında fərqin az olması yetişməyə mənfi təsir göstərir. İyul-avqust, sentyabr ayları bəzi meyvələr üçün yetişmə, şəkərtoplama baxımından mühüm aydır. Xüsusən üzüm, əncir, narda gec yetişmə baş verə bilər".

**Kəskin hava şəraitinin əkçinliyə də mənfi təsirləri var:** "Mövsümi becərmə işləri gedən qarğıdalı, şəkər çuğunduru sahələrində güclü küləklə müşayiət olunan qeyri-sabit hava şəraiti bar orqanlarının zədələnməsinə, tam qırılmasına gətirib çıxarır ki, bu da sahədən əldə olunan məhsuldarlığı aşağı salır.

Heyvandarlıq yeganə sahədir ki, belə havalar iri və xırda buynuzlu heyvanlarda, eyni zamanda quşçuluqda ideal havalar sayılır. Heyvanlarda bədən temperaturunun aşağı düşməsi nəticəsində yemin həzmə gediciliyi artır, heyvan daha iştahla yeyir və özünü bir növ komfortda hiss edir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Yağışlı havada dəmir yolunda sürət niyə endirilir?

**Elyar Muradov:** "Bu, bütün dünyada belədir..."

**Bakıda və Abşeron yarımadasında avqustun 8-dən başlayan yağışlı hava şəraiti günortaya qədər davam edib. Güclü yağışlarla bağlı paytaxtın iki əsas magistral yolunda hərəkət sürəti endirilib.**

Bakı Nəqliyyat Agentliyinin məlumatına görə, Heydər Əliyev prospekti-Hava Limanı-Bilgəh və Zığ dairəsi-Hava Limanı avtomagistrallarında bütün zolaqlar üzrə sürət həddi 20 km/saat endirilib. Agentlik bildirir ki, bunda məqsəd, hərəkətin təhlükəsizliyini təmin etməkdir: "Hərəkət iştirakçılarına bu cür hava şəraitində ehtiyatlı olmağı tövsiyə edirik. Sürücülərdən yollarda sürət həddinə əməl etmələrini, meteoroloji amilləri nəzərə almalarını və digər hərəkət iştirakçılarına qarşı anlayışla davranmalarını xahiş edirik. Eyni zamanda piyadalara yolun hərəkət hissəsinə çıxmamaq və yolun qarşı tərəfinə keçərkən müəyyən olunan piyada keçidlərindən istifadə etmələri tövsiyə edilir".

Maraqlıdır ki, dünən səhər saatlarında dəmir yolunda da hərəkət sürəti aşağı endirilib. Belə ki, kəskin hava şəraiti ilə əlaqədar olaraq, Bakı-Sumqayıt-Bakı marşrutunda hərəkət edən elektrik qatarlarının hərəkətində ləngimələr qeydə alınıb. Bununla bağlı Azərbaycan Dəmir Yolları QSC-nin yaydığı açıqlamada bildirilir ki, ləngimələrin yaranmasına səbəb hava şəraiti ilə əlaqədar olaraq, bütün qatarların sürətinə məhdudiyyət qoyulmasıdır.

Qeyd edək ki, avtomobil yollarında sürət həddinin endirilməsi yağışın asfaltı sürüşkən etməsi üzündən qəza ehtimalının yüksəlməsi ilə izah olunur. Bəs yağış dəmir yolunda hansı təhlükə yaradır ki, sürət həddi endirilir?

Məsələ ilə bağlı ADY-nin Sərnişin Daşımaları Departamentinin sədri Elyar Muradovun "Yeni Müsavat"a dediyinə görə, mövcud texniki təlimatlara əsasən kəskin hava şəraiti olduqda həm maşinistin özünün ixtiyarı var sürəti tənzimləməyə, həm də dispetçer tərəfindən belə göstəriş verilir: **"Hava şəraiti maşinistin yolu görmə imkanlarını məhdudlaşdırırsa, sürətin tənzimlənməsi mütləqdir. Güclü yağışlar isə adətən görmə məsafəsini azaldır".**

Departament rəhbəri deyir ki, bu, bütün dünyada belədir, hava şəraiti dəmir yolunda görmə imkanlarını məhdudlaşdırdıqda, sürət həddi endirilir.

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**



# “Nəhayət ki, ABŞ-da bir "dəli" prezident tapıldı və bunu etdi”

## Hikmət Hacızadə Amerikanı sarsıdan qətllər barədə: “Silah onların milli mentalitetidir”

**Sabiq vitse-prezident Co Bayden prezident Donald Trampı sərt tənqid edərək onun Amerikaya rəhbərlik etmək üçün mənəvi avtoritetə malik olmadığını bildirib.**

Ayovada seçicilər qarşısında çıxış edən Bayden Trampın ritorikası ilə ötən həftəsonu El Paso şəhərində baş verən qətliam arasında əlaqə olduğuna eyham vurub.

Onun sözlərinə görə, respublikaçı prezidentin mühacirlərlə bağlı işlətdiyi ifadələr ölkədə parçalanmanı dərinləşdirməyə xidmət göstərib. Bayden Tramp administrasiyasının Federal Təhqiqatlar Bürosunun bu yaxınlarda irqçi qruplardan qaynaqlanan terror təhlükəsi barədə xəbərdarlığını qulaqardına vurduğunu bildirib.

Yada salaq ki, Texasın El-Paso şəhərində 22 nəfər, Ohayo ştatının Dayton şəhərində 9 nəfər silahlı hücumçu tərəfindən öldürülüb. El Pasoda Walmart mağazasında əsasən ispandilliləri hədəf alan 21 yaşlı Patrik Krusus hücumdan öncə irqlərin qarışması barədə tənqidi mesajlar yayıb.

Birləşmiş Ştatlarda odlu silahla hücumların törədilməsindən sonra reaksiya verən Tramp “ağların üstünlüyü” nəzəriyyəsini açıq şəkildə qınayıb və silah alışı zamanı ciddi yoxlanmaya çağıraraq, təcili fəaliyyət göstərməyə söz verib.



**“Ağ Ev” sahibinin miqrantlarla bağlı ifadələri silsilə cinayətlərin törədilməsini alovlandırıb, Vaşinqtonda türk jurnalist sirləri açıb**

Bununla belə, ABŞ prezidenti silahlara nəzarətə dair qanun layihəsinə dəstək bildirməyib. Tramp onun mühacirət əleyhinə ritorikasını qınayanlara cavab verməyib.

**Politoloq Hikmət Hacızadənin “Yeni Müsavat”a bildirdiyinə görə, hər ABŞ prezidentinin dövründə ənənəvi olaraq belə hadisələr baş verir. Onun fikrincə, fərq ondadır ki, bu dəfə Tramp alovun üstünə yağ tökübü. Analitik bu baxımdan ABŞ prezidentinin qətllərin böyüməsində günahı olduğunu düşünür:** “Amerikada silah alışı çox asandır. Bu gün müasir, hərbdə istifadə edilən silahlar amerikalılar tərəfindən alınır. Ona görə istənilən faşist, dəli, psixikası pozulmuş birisi rahat şəkildə silah alaraq univermağa və ya hansısa binaya hücum edir”.

**H.Hacızadənin dediyinə görə, ABŞ-da hadisələrin kökündə duran məhz silah məsələsidir:** “Onlar hesab edir ki, insan silahlı olmalıdır, özünü müdafiə etməlidir, hətta polis evinə gəlsə özünü ondan qorumalıdır. Yəni amerikalıların milli mentalitetidir və ən çox ”ağ amerikalılar" arasında yayılmış ənənədir. İndi bu məsələni kökündən ləğv etmək çətindir. Onların lobbisi, konqresmeni, senatı var. Və qorxurlar ki, silah alışı azalsa, Amerika dişsiz cəmiyyətə çevrilə bilər. Çünki “ağ amerikalı” kovboy kimi cəngavərdir. O, özünü hökumətsiz, polissiz müdafiə etməlidir. Belə desək, silah ABŞ-da milli ideyanın əsasıdır. O baxımdan silahları xalqdan almaq çətindir. Sadəcə, müəyyən qədər nəzarəti gücləndirmək mümkündür, məsələn, şübhəli adamlara, kriminal keçmişi olanlara silah satılmaya bilər".

**Politoloq bildirir ki, ABŞ-da onların silah assosiyasiyası var:** “Milyonlarla üzvü ora pul verir və maraqlısı da odur ki, Trampa səs verənlər onlardır”.

**H.Hacızadə qətlləri terror kimi qiymətləndirmir:** “Cinayəti törədənlərdən biri öz bacısını vurub. Bu, terror deyil. Amma kriminogen vəziyyətin nəzarətdən kənarda olduğunu söyləyə bilərik. Sadəcə, deyirlər ki, biz buna dözərik, təki Amerikada dişsiz cəmiyyət olmasın.

Çünki oğru mənzilə girməyə cəsarət eləmir, bilir ki, ev sahibində silah var, polis evdə əsassız axtarış apara bilməz, mənzil sahibi silah gəzdirir".

**Ekspert Co Baydenin müxalifət partiyasının mövqeyini ifadə etdiyini xatırladı:** “Trampın miqrantlarla bağlı davranışı kiməsə qəddarlıq gəlir. Amma yüz minlərlə adam sənədsiz sərhədi keçir. Obama bu problemlə bağlı heç nə etmədi. Amma nəhayət ki, bir "dəli" prezident tapıldı və bunu etdi. Maraqlıdır ki, o miqrantlar vətəndaşlıq alandan sonra seçkidə demokratlara səs verirlər. Ona görə latın amerikalılar canfəşanlıq edir. Respublikaçılara isə işləyən, imkanı olan, ağ adamlar səs verirlər. Onlar deyirlər ki, Amerikanı tikmişik, şəhərləri, yolları salmışıq. Bu mənada respublikaçıların öz həqiqəti var".

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# ABŞ mətbuatı Ermənistanı İrana qarşı sanksiyaları pozmaqda suçladı

## Pol Miller: “Tramp üçün plan tamamilə aydın olmalıdır və Ermənistan kimi Tehranı dayandıracaq sanksiyaları pozan dövlətlərlə əməkdaşlıqdan vaz keçmək lazımdır”



**ABŞ-da fəaliyyət göstərən “Haym Solomon Center” qrupunun prezidenti və icraçı direktoru Pol Miller “Jns.org” saytında ABŞ-ın İrana tətbiq etdiyi sanksiyaların Ermənistan tərəfindən sabotaj edilməsi ilə bağlı maraqlı analitik yazı qələmə alıb.**

Musavat.com həmin məqaləni oxuculara təqdim edir:

“ABŞ-ın İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifə qarşı yeni sanksiyaları Tramp administrasiyasının İslam Respublikasının pozucu fəaliyyətinə qarşı son təzyiq vasitəsidir. Lakin sanksiya tətbiq etmək başqa, onların yerinə yetirilməsini təmin etmək isə tam ayrı məsələdir.

Prezident Donald Tramp İran körfəzindəki gərginliyin durmadan artmaqda davam etdiyi bir vaxtda rəsmi Tehranı nüvə proqramından vaz keçməyə, habelə ballistik raketlərin istehsalı proqramını sonlandırmağa, terrorizmə dəstəyini kəsməyə və bölgəsəl aqressiyasını bitirməyə məcbur etmək üçün beynəlxalq birliyi iranlılarla əməkdaşlıq etməməyə çağırır.

Avropadakı bəzi narazı “donquldanmalara” rəğmən əksər ölkələr ya ABŞ-ın daha sərt sanksiyaları ilə üzləşmək qorxusundan, ya da həqiqətən İrandan gələ biləcək təhdidlə bağlı narahatlıqlarından Trampın tələblərinə qoşulduqlarını açıqlayıblar.

Böyük Britaniyada baş nazir Boris Consonun hakimiyyətə gəlməsi ilə Birləşmiş Krallıq da artıq İran aqressiyasına qarşı sərt mövqe sərgiləyir. Bundan başqa, rəsmi London İran tərəfindən ələ keçirilən tankerlərin mübadiləsini də rədd etməkdədir. Gələn yeni məlumatlara əsasən, Böyük Britaniya da Birləşmiş Ştatlar kimi nüvə anlaşmasından imtina etməyə hazırlaşır.

Hətta İran neftinin iki iri idxalçısı sayılan, hazırda ABŞ-la ticarət müharibəsi şəraitində olan Çin və Hindistan belə, rəsmi Tehranla münasibətləri zəiflədir.

Dünyanın böyük bir hissəsinin Tramp administrasiyası ilə üz-üzə gəlməkdən qaçdığı bir vaxtda şimalda İranla kiçik sərhəd xəttinə malik Ermənistan mollalara ABŞ sanksiyalarından gələn zərərlərdən xilas olmağın ən gözəl yollarını təklif edir.

Ermənistan parlamentinin spikeri Ararat Mirzoyan bu il iyul ayının ortasında ABŞ-a rəsmi səfəri zamanı Birləşmiş Ştatları İran əleyhinə sanksiyalara qoşulması üçün Ermənistana təzyiq göstərməməyə çağırıb. A.Mirzoyan ən yeni şərhlərində Ermənistanın ABŞ-ın sanksiyalarına qoşulmamasının səbəblərini rəsmi İrəvanın İranla münasibətlərinə daha geniş kontekstdən baxılmasının zəruriliyi ilə izah edir.

Bu ilin fevral ayında Ermənistanın baş naziri Nikol Paşinyan Tehrana səfər edərək burada prezident Həsən Ruhani və ali dini rəhbər, ayətullah Əli Xamenеyi ilə görüşüb. Hərçənd bu səfər ilk baxışdan problematik görünməsə də, görüşlərdə bəyan edilən ritorika təşviş doğurmaya bilməz.

N.Paşinyanla görüşdən sonra Həsən Ruhani bu cümləleri sərf edib: **“Biz Ermənistanın İrana qarşı tətbiq olunan sanksiyalarla bağlı tutduğu mövqeyindən dolayı razılığımızı ifadə etdik. Hər iki ölkənin hədəfi öz maraqlarımız çərçivəsində irəliyə doğru getmək, 3-cü ölkələrin birgə layihə və əməkdaşlığımıza qarışmasına yol verməməkdir”.**

Əksər ölkələrin İranla iş münasibətlərindən yayındığı bir zamanda, 2018-ci ildə İran və Ermənistan arasında ticarət dövriyyəsi özünün rekord səviyyəsinə - 364 milyon dollara çatıb. Bu da təsadüfi deyil. Ermənistan cənubda İranla sərhədboyu yerləşən Meğri şəhərində azad iqtisadi zona açıb.

Ermənistanın hazırkı rəhbərliyi, deyəsən, heç ABŞ-ın sanksiyalarını vecinə almır. İrana qarşı sanksiyaları əsas memarı sayılan prezident Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun İrəvana səfərindən sonra belə, Nikol Paşinyan Ermənistanın rəsmi Tehranla münasibətlərini zəiflətməyəcəyini bəyan edib.

Lakin ABŞ üçün əsl narahatedici məqam Ermənistanın İranın sanksiyalardan yayınmasına kömək etmək üçün xüsusi canfəşanlıq göstərməsidir.

İran qazının Ermənistan vasitəsilə Gürcüstana çatdırılmasını nəzərdə tutan sazişin imzalanması isə ABŞ sanksiyalarına zidd hesab edilir. Ermənistanın İrandan idxalatı Avropa ilə bağlanılan barter anlaşmalarından kənarda olsa da, istənilən saziş Birləşmiş Ştatların hiddətinə səbəb olmalıdır. Çünki bununla Ermənistan sanksiya pozucusu olaraq, Trampın İran aqressiyasını durdurmaqla bağlı ambisiyalarının üstündən xətt çəkir.

Faktiki olaraq Ermənistan əvvəllər də İrana beynəlxalq sanksiyalardan yayınmağa yardım edib. 2012-ci ildə “Reuters” agentliyi erməni banklarının İrana qeyri-qanuni bank əməliyyatlarında dəstək verməsi barədə xəbər yaymışdı. Həmin vaxt bu, rəsmi Tehrana xarici müştərilərə verilən və alınan ödəmələri gizli saxlamağa, İranın nüvə raket proqramını genişləndirməsinə mane olmağa çalışan Qərb kəşfiyyatını aldatmağa imkan yaratmışdı.

Bu yaxınlarda ABŞ-ın Maliyyə Nazirliyi Ermənistan mənşəli “Flight Travel LLC” şirkətini terrorçu təşkilatlar sırasına daxil edilən İslam Keşikçilər Korpusuna bağlı “Mahan Air” firması ilə əlaqələrindən dolayı cəzalandırıb.

Tramp üçün plan tamamilə aydın olmalıdır və Ermənistan kimi Tehranı dayandıracaq sanksiyaları pozan dövlətlərlə əməkdaşlıqdan vaz keçmək lazımdır. Bunun yerinə ABŞ-ın dəyər və maraqlarını paylaşan dövlətlərlə geopolitik cəhətdən ağıllı əməkdaşlıq münasibətləri qurmaq vacibdir. Strateji seçimin düzgün edilməməsi İranın aqressiyasını daha da gücləndirə bilər".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019

# Qurbanınız qoyun olsun: AQTA xəbərdarlıq etdi

## Qurban bayramı günlərində kəsilən heyvan ətlərinə nəzarət üçün respublikada 44 stasionar heyvan kəsimi məntəqəsi və 30 çadır tipli kəsim yeri istifadəyə verilib

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən Qurban bayramında fəaliyyət göstərəcək stasionar və çadır tipli kəsim məntəqələrinə infotur təşkil olunub.**

"Yeni Müsavat" xəbər verir ki, 30-dan çox media nümayəndəsinin iştirak etdiyi infoturun keçirilməsində məqsəd bayrama hazırlıqlarının gedişatı, həmin günlərdə əhalinin təhlükəsiz ət və ət məhsulları ilə təmin edilməsi istiqamətində görülən işlər ilə bağlı jurnalistləri məlumatlandırmaqdır.

İnfotur çərçivəsində kəsim yerləri ilə bağlı jurnalistlərə xeyli məlumat verilib.

**AQTA-nın Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin müdiri - Respublikanın baş dövlət baytarlıq müfəttişi Qalib Əbdüləliyev** jurnalistlərə açıqlamasında bildirib ki, agentlik tərəfindən bayram günlərində ölkə ərazisində qurbanlıq heyvanların kəsiminin baytarlıq-sanitariya və gigiyena normalarına cavab verən stasionar və çadır tipli heyvan kəsimi məntəqələrində aparılması həyata keçiriləcək: "Qurban bayramı günlərində heyvan kəsiminin qida təhlükəsizliyinin tələblərinə uyğun formada həyata keçirilməsi üçün çox ciddi hazırlıqlar gedir. Biz daimi fəaliyyət göstərən kəsim müəssisəsinə və müvəqqəti olaraq hazırlanmış çadır tipli ət kəsimi məntəqələrinə baxış keçiririk. Qurban bayramı günlərində kəsilən heyvan ətlərində qida təhlükəsizliyinin tələblərinin qorunmasını təmin etmək üçün respublikada 44 stasionar heyvan kəsimi məntəqəsi və 30 çadır tipli kəsim yeri lazımi avadanlıqlarla təmin edilərək vətəndaşların ixtiyarına verilib. Bura gətirilən heyvanlar həkim müayinəsindən keçir və baytarlıq şəhadətnamələri ilə təmin olunur. Heyvan sağlamlığı tam sübuta yetirildikdən sonra onun kəsiminə icazə verilir. Daha sonra kəsilmiş ət də baytar-sanitar ekspertizasından keçirilir. Yekunda isə ət müştərilərin istifadəsinə verilir".

**AQTA-nın İctimaiyyətlə əlaqələr sektorunun müdiri Aysel Fərziyeva jurnalistlərə açıqlamasında deyib ki, 44 stasionar məntəqə bu günədək mövcud olan və AQTA-nın tələblərinə uyğun qeydiyyatdan keçmiş məntəqələrdir:** "Həmin məntəqələrdə qiymətlər sahibkarla vətəndaş arasında olan tələblərə əsasən müəyyənləşir. Agentliyin mütəxəssislərin metodiki tövsiyəsi ilə hazırlanmış çadır tipli kəsim məntəqələrində qurbanlıq heyvanların satışı ilə yanaşı onların kəsimi, hazırlanması və digər xidmətlər yerli icra strukturları tərəfindən təmin ediləcək. Kəsimdən əvvəl və sonra müvafiq baytarlıq müayinəsinin keçirilməsi heyvandan insana keçə biləcək xəstəliklərin qarşısının alınması baxımından zəruri şərtdir. Heyvanların kəsimi və satışı aidiyyəti dövlət orqanlarının müəyyən etdiyi yerlərdə həyata keçirilməli, sanitariya-gigiyena tələblərinə uyğun olmayan küçə, yol kənarları, məhəllələr, parklar və digər ictimai yerlərdə heyvan kəsimi və satışı, eyni zamanda baytarlıq arayışı olmadan iri və xırda buynuzlu heyvanların daşınması yolverilməzdir. Burada agentlik yalnız nəzarət və tənzimləmə funksiyasını həyata keçirir. Bayram günlərində bu məntəqələrin ətrafında bizim səyyar baytarlıq laboratoriyalarımız fəaliyyət göstərəcək. Həmin laboratoriyalarda xidmətlər ödənişsiz olacaq. Şəxsi istifadəsi üçün öz həyətyanı sahəsində qurban kəsən şəxslərə heyvanı kəsməzdən əvvəl baytar müayinəsindən keçirmələri tövsiyə olunur. Qanunsuz olaraq küçə və yol kənarlarında antisanitar şəraitdə heyvan kəsimi və satışı ilə məşğul olmaq isə qanunla qadağandır və bu kimi halların qarşısını almaq üçün aidiyyəti icra orqanları ilə birlikdə qanunvericilik çərçivəsində tədbirlər həyata keçiriləcək".









**30 saylı qida təhlükəsizliyinə nəzarət məntəqəsinin baytar həkimi Mədət Qocayevin sözlərinə görə, kəsimdən əvvəl yoxlanılan heyvanda kəsimdən sonra xəstəlik aşkarlanarsa həmin ət utilizasiya edilir:** "Kəsim prosesindən əvvəl bütün heyvanlara kliniki baxış keçirilir. Heyvanın baş nahiyəsindən tutmuş daxili orqanlarına qədər bütün yoxlanışlar aparılır. Əgər xəstəliklə bağlı heyvanlarda hər hansı şübhəli məqam aşkarlanarsa, onu laboratoriya şəraitində yoxlanışa cəlb edirik. Daxili orqanlardan, xüsusilə ağciyər, qaraciyərdən, ətin özündən nümunələr götürülüb yoxlandıqdan sonra ətin yararlı olub-olmadığı haqqında yekun qərar verilir. Bu günə qədər hər hansı xəstəliyin daşıyıcısı olan heyvan bizim məntəqəyə daxil olmayıb. Ümumiyyətlə, xəstə heyvanın kəsiminə icazə verilmir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Qurbanlıq heyvanın bəzədilməsi - din bu məsələyə nə deyir?

**İki gün sonra bir sıra müsəlman ölkələrində, o cümlədən Azərbaycanda Qurban bayramı qeyd olunacaq. Bu münasibətlə ölkəmizdə də artıq bayram hazırlıqlarına başlanıb.**



Qurban bayramının ölkəmizdə olan adətlərindən biri də nişanlı qızlara qurbanlıq heyvanlar, bununla bərabər xonçalar aparılmasıdır. Əgər əvvəllər qız evinə göndərilən qurbanlıq heyvanların boynuna, sadəcə, qırmızı lent bağlanırdısa, indi onların təmtəraqlı şəkildə bəzədilməsi bir dəb halını alıb. Oğlan evi tərəfindən heyvanlar müxtəlif əl işləri, bəzəkli aksesuarlarla bəzədilir, başına ağ fata, ayağına tül ayaqqabı geyindirilir, qırmızıya bürünür, buynuzundan mirvari asılır və sairə. Bunun üçün bazarlarda və mağazalarda xüsusi paltarlar da satılır. Bu cür paltarların qiymətləri təxminən 25-150 manat arası olur. Beləliklə, paltarların qiyməti onun parçasında, naxışından asılı olaraq dəyişir.

Paytaxtda bəziləri xüsusi bəzək-düzək üçün gül mağazalarına üz tutur. Çünki bu cür yerlərdə heyvanlar daha təmtəraqlı və peşəkarcasına bəzədilir. Bəziləri heyvanı kəsilmiş vəziyyətdə satış məntəqələrindən alır, gül satılan məntəqələrə gətirir, burada isə qurban əti xüsusi səbətlərdə qablaşdırır, qeyri-adi dekorlarla hazırlayıb, qız evinə göndərirlər.

Sosial şəbəkələrdə yayılan fotolardan belə aydın olur ki, bəzən rayon, kənd yerlərində qoçu da gəlin kimi, təmtəraqlı bəzəyənlər olur.

Bəs dinimiz bu məsələni necə qəbul edir? Bəzi ilahiyyatçılar qurbanlıq heyvanların bu cür əndazəni aşan tərzdə bəzədilməsinin günah olduğunu, dini gözdən saldığını bildirir.

Mövzu ilə bağlı ilahiyyatçı Emil Rahiloğlu "Yeni Müsavat"a danışıb. İlahiyyatçı qeyd edib ki, qurbanlıq heyvanların təmtəraqlı bəzədilməsinin İslam dini ilə heç bir əlaqəsi yoxdur: "Bu, sırf şəxsi yanaşmadır. Hətta qız evinə sadə qoyunun da aparılması barəsində hər hansı bir şərti göstəriş yoxdur".

İlahiyyatçı onu da qeyd edib ki, qurbanlıq heyvanların din adına bəzədilməsi günah hesab olunur: "Dində olmayan bir əməli dinə aid etmək olmaz. Amma şəxsi zövq kimi edilərsə, günah hesab olunmur".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Şəki Xan Sarayı fəaliyyətini bərpa edib

**Avqustun 9-da Dövlət Turizm Agentliyinin tabeliyindəki "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunda yerləşən Şəki Xan Sarayının ərazisinə giriş bərpa edilib.**

Bu barədə Dövlət Turizm Agentliyindən məlumat verilib.

Bildirilib ki, yerli və xarici mütəxəssislərin, digər dövlət orqanlarının müsbət rəylərindən sonra sarayın fəaliyyətinin bərpa olunmasına qərar verilib.

Dövlət Turizm Agentliyi yerli və xarici turistləri yenidən saray ərazisində görməkdən məmnun olacağını bildirir və onları Şəki Xan Sarayını ziyarət etməyə dəvət edir.



Xatırladaq ki, iyulun 14-də Şəki Xan Sarayı ərazisində 1530-cu ilə aid ağacın təxminən 50 sm diametrində olan budağı qəflətən qırılaraq sarayın həyətində olan turistlərin üzərinə düşüb. Nəticədə 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Xəsarət alanlardan bir nəfəri xəstəxanada ölüb. Hadisədən zərər çəkmiş 13 nəfər ilkin tibbi yardımdan sonra evə buraxılıb. Yerdə qalan yaralıların müalicəsi xəstəxanalarda davam etdirilir. Saray ərazisində baş vermiş hadisənin səbəblərinin müəyyənləşdirilməsi məqsədilə Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Turizm Agentliyi və Baş Prokurorluğun məsul şəxsləri Şəki şəhərinə ezam olunublar. Dövlət Turizm Agentliyinin rəhbərliyinin qərarı ilə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunda yerləşən Şəki Xan Sarayının ərazisinə giriş bir müddət bağlıdır.

YENİ MÜSAVAT
N 167 (7337) 10 avqust 2019

# “Neftçi” işini çətinə saldı: yəhudi klubuna iki top buraxmağın iki səbəbi...

## “Neftçi” “Bney Yehuda” ilə qarşılaşmada nə hücum futbolu oynayırdı, nə müdafiə; klub bir həftə sonra Bakıdakı kimi oynayarsa...

**Avropa Liqasının 3-cü təsnifat mərhələsində Bakıda “Neftçi”nin İsrailin “Bney Yehuda”klubunu asanlıqla məğlub edə biləcəyi haqda proqnozlar vardı. Hesab olunurdu ki, püşk bakılılara asan rəqib qismət edib və Robert Bordinin yetirmələri mərhələnin taleyini Bakıda həll edə biləcəklər.**



Hər halda, kimsə demirdi ki, yəhudi klubu Tula “Arsenal”ından güclü müqavimət göstərə bilər. Yalnız praqmatiklər qonaq komandanın Avroliqada təcrübəsinə istinad edirdilər. Doğrusu, bu səbəbdən oyuna şəxsən bəndənizdən xüsusi maraq yox idi. Amma oyuna baxdıqca iki məqam artıq ekrana kilindlənməyə bəs edirdi. “Neftçi” “Arsenal” la xüsusilə Bakıda oynayan komanda deyildi, “Bney Yehuda” isə bura uduzmağa gəlməmişdi.

Əksinə, bu klub qələbəni əldən vermələrinə baxmayaraq, daha mütəşəkkil və intizamlı oyunu ilə yaddaş qaldı. Oyun boyu vaxt uzatmalardakı artistliklər hətta adlı-sanlı klublarda da rast gəlinən hadisələrdir və bunun üzərində kluba yüklənmək doğru deyil. Məsələn, o “artistlərdən” biri matçın son dəqiqələrində zədələnən 23 yaşlı futbolçu Bakıdakı xəstəxanaların birinə aparılıb. Ona dirsək sümüyünün sınığı və dirsək bağlarının zədələnməsi diaqnozu qoyulub. Mərkəz müdafiəçisi qolu gipsli halda gecə saatlarında xəstəxanadan buraxılıb və komandanın qaldığı hotelə qayıdıb. Ben Ari İsrailə döndükdən sonra növbəti dəfə tibbi testlərdən keçəcək və onun son durumu məlum olacaq.

Yəni deməyimiz odur ki, “Neftçi” niyə belə oynayırdı ki, yalnız son dəqiqədə məğlubiyyətdən qaça bildi? Məncə, birinci səbəb psixoloji ola bilərdi. Klub “Arsenal”ı asanlıqla keçmiş, son oyunlarda qapısını toxunulmaz saxlamış və xeyli qollar vurmuşdu. İkinci səbəb isə taktiki planda nəzərə çarpırdı. “Neftçi” nə hücum futbolu oynayırdı, nə müdafiə. Hücum yox idi və heç müdafiə də əvvəlki tək etibarlı deyildi. Müdafiənin buraxdığı kobud səhvləri isə İsrail klubu bağışlamadı. 26-cı dəqiqədə Tambi, bundan 10 dəqiqə sonra isə Qadir hesabı 0:2 etdi. “Neftçi” bu qolların şokundan oyunun sonunadək çıxa bilmədi və çoxlu səhvlərə yol verməkdə davam etdi. Monroz oyunun 43-cü dəqiqəsində “Bney Yehuda” müdafiəsinin çaşqınlığından istifadə edərək qol vura bilməsəydi, “Neftçi” çətin ki, məğlubiyyətdən yaxa qurtara bilərdi. İkinci hissədə də “Neftçi” hücumlarım kəsərini və sayını artırsa da “Bney Yehuda”ya yerini göstərə bilmədi. Bu klubun müdafiədə etibarlı oynadığı və əks hücumlarda çox təhlükəli olduğu göründü. “Neftçi”nin futbolçusu Dario Frederiko “Bney Yehuda”nın Tula “Arsenal”ından daha zəif rəqib olduğu barədə deyilənlərin oyuna təsir etməsi barədə iddialardan danışıb. “Deməzdim ki, sosial şəbəkələr və mediada verilən şərhlər bizə əks təsir etsin. İndiki zamanda futbolda zəif və güclü komanda anlayışı yoxdur. Bəzən zəif sayılan komanda güclüyə qalib gəlir. Bu da futbolçuların əzmkarlığından asılıdır. Bunların təsir etdiyini deməzdim”.













****

**“Birinci hissə bizim üçün yaxşı alındı, bir neçə təhlükəli epizod yaratdıq, iki qol vurduq. Amma sonra yorulduq. Çünki bu, bizim ilk rəsmi oyunumuz idi”. “Bney Yehuda”nın baş məşqçisi Yossi Abukasis mətbuat konfransında belə deyib. O, “indiyə qədər belə biabırçı oyun görməmişdim. Futbolçularınız vaxt uzadır, azarkeşlərin əsəbləri ilə oynayırdılar. Buna görə utanırsız” sualına eyni kəskinliklə cavab verib:** “Belə axmaq suallara cavab verməyəcəm”.

Qeyd edək ki, 48 yaşlı məşqçi oyun boyu çox aqressiv təsir bağışlayırdı və ara-sıra ekranda “Neftçi”nin italiyalı məşqçisi ilə ağızlaşdığı göründü.

**Yossi Abukasis deyib ki, İsraildəki oyunda hansı taktika seçəcəkləri və komandaların şansları barədə indidən nəsə deməyəcək:** “Bu barədə hələ heç nə deyə bilmərəm. ”Neftçi” çox güclü komandadır. Təəssüf ki, biz cavab görüşünə qədər əlavə oyunçu sifariş ərizəsinə sala bilməyəcəyik. Oradakı matçın necə nəticələnəcəyini həyat göstərəcək."

**“Neftçi”nin baş məşqçisi Roberto Bordin deyib ki, İlk dəqiqələrdən rəqib 8-9 oyunçu ilə müdafiə olunub:** “Hətta bəzən 2 hücumçu da onlara qoşulurdu. Rəqib bütün komanda ilə müdafiə olunurdu. İlk hissədə geridən hücum qurmaqda çətinlik çəkdik. Bu baxımdan rəqibə əks-hücumlar təşkil etməyə şərait yaratdıq. Hətta hesab 0:2 olmamışdan əvvəl də rəqib qapısında təhlükəli vəziyyətlərimiz var idi. Hesabda geri düşməyimizə baxmayaraq, komanda toparlandı və sona qədər vuruşdu. Müdafiədə bəzi boşluqlarımız var. Bunu həftəboyu düzəltməyə çalışacağıq. Oyunçularımız xarakter göstərdilər. Cavab oyununda da bunu təkrarlamağa çalışacağıq”.

**Bordin deyib ki, komanda qol vurursa, burda tək hücumçunun payı olmur:** “Eləcə də müdafiə olunanda qol buraxırıqsa, bu, hamının səhvidir. Bunun üzərində işləyəcəyik. Rəqib bütünlüklə müdafiəyə çəkilmişdi. Səhvimiz oyunu ortadan qurmaq idi. Bu da bizə baha başa gəldi. Komandama inamımız böyükdü və inanırıq ki, növbəti mərhələyə adlayan tərəf biz olacağıq”.

***

“Neftçi” Bakıda işini çətinə saldı. Bordinin optimizminə baxmayaraq, klub Bakıdakı kimi oynayarsa, nəticə fərqli olmaya bilər. Yada salaq ki, hətta qolsuz bərabərlik rəqibi növbəti mərhələyə çıxarır. “Neftçi”nin bu klubla oyunda büdrəməsi həqiqət də üzücüdür. Klub çempionatda çempionluğu necə əldə verdisə, eyni tale ilə Avroliqda da üzləşə bilər. Bu isə klub adına böyük uğursuzluq sayılacaq.

Cavab matçı avqustun 15-i Bakı vaxtilə saat 21:00-da start götürəcək. Petak Tikva şəhərindəki “Ha Moşava” stadionunda keçiriləcək görüş “CBC Sport” telekanalı vasitəsi ilə birbaşa nümayiş olunacaq. “Ha Moşava” 2011-ci ildə tikilib, “Hapoel” və “Makkabi” də oyunlarını bu stadionda keçirir. 25 milyon ABŞ dollarına tikilən stadion 20 min tamaşaçı tutur.

**❑ ORXAN, “Yeni Müsavat”**

# YENİ MÜSAVAT

## Son səhifə

N 167 (7337) 10 avqust 2019


## Bunları bilirsinizmi?

* Televiziya ilə ilk hava proqnozu 11 noyabr 1936-cı ildə İngiltərədə verilib.

* 1 damla neft 25 litr suyu yararsız hala salır.

* Hər il Yer üzünə ildırımla 10 milyon ton azot gətirilir.

* Hər il Yer üzündə 50 mindən artıq zəlzələ baş verir.

* 18 fevral 1979-cu ildə Saxara səhrasına qar yağıb.

* Təxminən Yer kürəsinin 70% -i su ilə örtülüdür. Bundan yalnız 1%-i içməli su kimi yararlıdır.

* Dünya okeanının həcmi 328 000 000 kub milə bərabərdir.

* Orta ölçülü aysberqin çəkisi təxminən 20 milyon tondur.

* Ən böyük aysberq 1956-cı ildə qeydə alınıb. Onun uzunluğu 320 km, eni isə 96 km olub ki, bu da Belçikanın ərazisindən böyükdür.

* 1971-ci ildə Yaponiyanın İşiqaki adasında qeydə alınmış ən böyük dalğanın hündürlüyü 85 metrə çatırdı.

* Uşaqların bahar fəslində daha sürətlə böyüdüyü sübuta yetirilib.

* Nə qədər qəribə olsa da, eskimoslar soyuducuları yeməklərin donmaması üçün istifadə edir.

* "Ketçup" əvvəllər dərman kim istifadə edilib.

* İtaliya bayrağının dizaynını Napoleon Bonapart hazırlayıb.

* Soyuq otaqda yatan insanların pis yuxu görmə ehtimalı digərlərinə nisbətən daha çoxdur.

* Diş çöpləri yanlış istifadə nəticəsində amerikalıların boğulmasına ən çox səbəb olan vasitədir.

* Ən uzun barmaqdakı dırnaq ən sürətli, ən qısa barmaqdakı isə ən yavaş templə uzanır.

* Koalalar, primatlar və insanlar özlərinə xas barmaq izi olan yeganə canlılardır.

* Kağız parçalarından Yer üzündə ilk dəfə Çində istifadə edilib.

* İnsanlar anadan bədənlərində 300 ədəd sümüklə doğulur. Yetkinlik dövrünə çatdıqca isə sümüklərin sayı 206-ya qədər azalır.

* Telefonu icad edən Aleksandr Qraham Bell həyat yoldaşı və anası ilə heç vaxt telefonla danışa bilməyib. Çünki onların ikisi də anadangəlmə kar olub.

* İnsan səhər yuxudan ayıldıqda boyu standart ölçüdən 1 sm artıq olur.

* Kosmosa qaldırılacaq hər 1 kilo çəki üçün sərf olunan yanacaq miqdarı 530 litrdir.



## Ana körpəsini öpdü, onu virusa yoluxdurdu

**İngiltərənin Sanderlend bölgəsindən olan Keti Teylor 10 aylıq qızını öpərək ona herpes virusu keçirib. Bu isə balacanı öldürə bilərdi. Öpüş balaca Lilinin üzünün qırmızı ləkələrlə örtülməsinə səbəb olub. 34 yaşlı ana yeni doğulan körpə ilə birgə xəstəxanaya gedib. Orada ona uşağının durumuna nəzarət etmək tövsiyə olunub. O düşünüb ki, bu, uşağın yeni dişlərinin çıxmasının əlaməti ola bilər. Ona görə də xüsusi gel alıb. Amma bunların heç biri kömək etməyib. Uşağın ağzının kənarındakı ləkə getdikcə böyüyüb. Üçüncü sutkada Keti qızı ilə birlikdə hospitala gedib. Həkimlər onda herpes virusu aşkarlayıblar. Ana qeyd edib ki, Liliyə qədər bir qızını itirib. Ona görə də bütün gücü ilə yeni doğulan qızını xilas etmək istəyir.**

Lili ilk günlər ağrıya görə yemək yeyə və su içə bilmirdi. Anası ona suyu şpris vasitəsilə verirdi. Keti danışıb ki, uşağın sağalması üçün bir ay lazım olub. O qeyd edib ki, bu müddət ərzində özünü çox pis hiss edirdi. Çünki insanların ona "uşağını qoruya bilməyən ana" kimi yanaşdıqlarını düşünürdü.

Sadə herpes virusu böyük adam üçün təhlükəli deyil. Amma yeni doğulan körpələrə və azyaşlı uşaqlara, eləcə də zəif immuniteti olan şəxslərə ciddi təhlükə törədə bilər. Zamanında müalicə olunmasa xəstəlik ciddi mərhələyə keçə bilər.

## Göbələk yığmağa getmişdi, pələng parçaladı

**Hindistanın Madxya Pradeş ştatında pələng bir kişiyə hücum edib və onu yeyib. Bu barədə "İndia Today" nəşri xəbər verib. 28 yaşlı Manoc Dxurve bir neçə gün əvvəl meşəyə göbələk yığmağa gedib. Bir neçə saat sonra kişi evə qayıtmadığı üçün qohumları onu axtarmağa yollanıblar. Onlar öncə kişinin əşyalarını fərq ediblər, ardınca isə parçalanmış cəsədinin hissələrini. "Hadisə yerindən tapılan izlər onu deməyə əsas verir ki, qurban pələng tərəfindən öldürülüb" - bunu da meşəyə nəzarət edən şəxslər bildiriblər.**



Ölən şəxsin ailəsinə kompensasiya ödəməyə söz veriblər. Hücumun baş verdiyi rayonda eyni zamanda kameralar quraşdırılıb. Onlar Dxurveni qətlə yetirən heyvanı müəyyənləşdirmək istəyiblər. Kənd sakinlərinin dediyinə görə, onlar pələngi bir neçə gün əvvəl görüblər. Bu, ilk belə haldır ki, bir insan yırtıcı heyvanla qarşılaşandan sonra qətlə yetirilib.

## İlan tavandan hamama düşdü



**Avstraliyanın Brisben şəhərində yarım metrlik ilan tavandan hamama düşüb və orada dişini fırçalayan uşaqları qorxudub. Bu barədə "Daily Mirror" nəşri xəbər verib. Qorxuya düşmüş uşaqlar vanna otağından qaçıblar. Ailə fövqəladə xidmətin əməkdaşlarını çağırıb ki, onlar evdən heyvanı çıxarsınlar. Hadisə yerinə ilan yaxalayan Brays Lokett gəlib. O, xəbər verib ki, Avstraliyadakı hər üç evdən birində ilan gizlənib. Lokett qeyd edib ki, bu heyvan qeyri-adi yer tapıb. Onun sözlərinə görə, çox nadir hallarda kiminsə tavanından ilan sürüşüb düşür. O, eyni zamanda qeyd edib ki, artıq 7 ilə yaxındır ki, müxtəlif yerlərdən ilan tutur və onlardan qorxmur. Lokett qeyd edib ki, vanna otağından tapılan ilan isti sevən "xalça pitonu"dur. Onlar istini sevirlər. Buna görə də isti olan yerdə gizlənirlər. Mütəxəssisin sözlərinə görə, bu ilan insan üçün təhlükəli deyil. Amma narahat edilməkdən xoşlanmır.**

## Ofisdə niyə yorulduğumuzun səbəbi bəlli oldu

**Ofis işçilərinin davamlı olaraq özlərini yorğun hiss etmələrinin səbəbi yuxusuzluq və ya ağır nahar deyil. Bu amillərin müəyyən təsiri olsa da, əsl səbəb oksigen azlığıdır. ABŞ-ın elm adamları ofis və idarələrdə karbon miqdarının yüksək olması səbəbindən işçilərin özlərini yorğun hiss etdiyini bildirirlər.**

Ofisdəki karbondioksidin miqdarı açıq havada olduğundan daha çoxdur. Ventilyasiya sisteminin düzgün qurulmadığı ofislərdə çalışanların tənəffüsü ilə əlaqədar bu nisbət zərərli həddə çıxa bilir.

Araşdırma zamanı mütəxəssislər ofis, sinif, iclas otaqlarındakı və açıq havadakı karbondioksidin miqdarını ölçüblər. Güman edildiyi kimi ən sıx karbondioksid iclas otağında qeydə alınıb.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, insan sağlamlığını təhdid etməsə də, yüksək həddə olan karbondioksid insanın beynindəki qərarvermə mexanizmlərin mənfi təsir edir və yorğunluq yaradır.

## Sirli xəstəlik oğlanın qarnını şişirdir

**Hindistanın Muzaffarpur şəhər sakini sirli xəstəliyindən danışıb. Bu xəstəlik onun qarnının anormal şəkildə şişməsinə səbəb olub. 19 yaşlı Sucit Kumar son 7 ildə qarnının dayanmadan şişməsindən şikayətlənib. Uşağı xəstəxana-xəstəxana dolaşdırsalar da, həkimlər bu xəstəliyin səbəbini tapa bilməyiblər. Hindli iddia edir ki, onun qarnı hər keçən il daha çox şişir. Həkimlər isə tapmacalar içində baş sındırırlar.**



Kumarda qarnının şişməsindən başqa hər hansı xəstəliyin əlaməti tapılmayıb. Həkimlər sadəcə bəzi preparatların köməyi ilə onun ağrısını azalda biliblər. Gənci endoskopiya - daxili orqanların müayinəsi - üçün Hindistanın paytaxtı Nyu Dehliyə göndəriblər. Amma ailənin bu səfər üçün pulu yoxdur.

Yaxınlarının sözlərinə görə, Kumarın xəstəliyi onun həyatını hiss ediləcək dərəcədə çətinləşdirir. Şişən qarnına görə hindli gənc idmanla məşğul ola bilmir. Onun anormal görüntüsü gülüş və sataşmalara səbəb olur.

Durumuna baxmayaraq, gənc oğlan mexanik kimi işə düzəlib: "İşə getməyi çox sevirəm. Mən bir il əvvəl velosiped zavodunda işə düzəldim. İş yoldaşlarımdan heç biri mənə gülmür, onlar mənə hörmət edirlər".

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 3.050

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.